6 iyul 2018-ci il
№25 (8791)

www.muallim.edu.az
muallim@edu.gov.az

# AZƏRBAYCAN MÜƏLLİMİ

Azərbaycan Respublikası Təhsil Nazirliyinin orqanı

*Təhsil millətin gələcəyidir!*
*Heydər Əliyev*

## Bu sayımızda

**Tələbələrin köçürülməsinə başlanılıb** ⇨səh.2

**“STEM Azərbaycanda 2018” Müəllim Konfransı keçiriləcək** ⇨səh.4

**Yüz dərsə bərabər dərs** ⇨səh.5

**UTECA Boğaziçi Universiteti ilə birgə layihəyə başlayır** ⇨səh.7

# Təhsilin keyfiyyət nişanı

## 842 SABAH tələbəsi məzun oldu



Bakı Konqres Mərkəzi SABAH məzunlarının tələbəliyinin son gününə ev sahibliyi edir. Məzunların qonaqları isə Prezident Administrasiyasının Humanitar siyasət məsələləri şöbəsinin müdiri Fərəh Əliyeva, administrasiyanın Gənclər siyasəti və idman məsələləri şöbəsinin müdiri, Birinci vitse-prezidentin köməkçisi Yusuf Məmmədəliyev, təhsil naziri Ceyhun Bayramov, vergilər naziri Mikayıl Cabbarov, gənclər və idman naziri Azad Rəhimov, millət vəkilləri, dövlət və özəl qurumların rəhbərləri, ali təhsil müəssisələrinin rektorları, media qurumlarının rəhbərləri, təhsil ekspertləridir. Onlar Azərbaycan təhsilində keyfiyyət nişanına çevrilən SABAH məzunlarını təbrik etməyə gəliblər.

### “Mən SABAHam” deyənlər

Onlar fəxrlə “Mən SABAHam” deyirlər. “SABAH”, yəni, savadlı, bacarıqlı, hazırlıqlı deməkdir. SABAH qrupları 2014-2015-ci tədris ilində 34 ixtisas üzrə 7 dövlət ali təhsil müəssisəsində yaradılıb. Təhsil Nazirliyinin təşəbbüsü, xüsusi dəstəyi ilə start götürən layihə qısa müddətdən sonra məqsədinə çatıb. Hazırda SABAH qrupları 12 ali təhsil müəssisəsində fəaliyyət göstərməklə 40-dan artıq ixtisas üzrə 2300-dən çox tələbəni əhatə edir.

⇨Ardı səh.3

# Hərənin öz yayı

Yay tətilinin “ekvator”una doğru irəliləyirik. Uşaqlar istirahət günlərinin “dad”ını maksimum çıxarmağa, valideynlər isə qarşıdan gələn tədris ilinin planlarını cızmağa çalışırlar. Sirr deyil ki, bəzi ailələr yay istirahətini təşkil edərkən uşaqları da nəzərə almağa çalışırlar. Təbii ki, bu, ilk növbədə ailənin rifah halı ilə ayaqlaşmalı olan məsələdir. Kimin imkanı var, xarici ölkələrə səfərlərə çıxır, kimin maddi durumu icazə vermirsə, Xəzərin sahilləri ilə kifayətlənməli olur. Azərbaycanın müxtəlif güşələrindən onminlərlə ailə var ki, övladı üçün Xəzər dənizi də əlçatmazdır: ata və ana gündəlik işlə məşğuldurlar, ona görə də uşaqlar doğma məhəllə və ya küçədə top qovmağı da il ərzində yaranan nadir fürsət sayırlar.

Mövzuya dair statistikaya malik olmasaq da, əminliklə deyə bilərik ki, övladlarımızın əksəriyyəti yay tətilini Azərbaycanda keçirirlər. Bəs dünyada necə? Müxtəlif ölkələrdə məktəblilər üçün yay tətili nə deməkdir?

YAPONİYAda məktəblilər üçün tətil anlayışı nisbidir. Bu ölkədə yeni tədris ili aprelin 1-də start götürür, martın 1-də başa çatır. Yəni, yapon uşaq üçün il ərzində cəmi bir ay istirahət etmək imkanı yaranır və bu şans heç də yay aylarına təsadüf etmir. Yaponlar hesab edirlər ki, “tətil il ərzində yaxşı başa düşülməyən mövzunun və ya fənnin yenidən öyrənilməsi üçün mövcud olan imkandır”. Bu səbəbdən uşaqların əksəriyyəti bir aylıq tətil zamanı müəllimlərin verdikləri tapşırıqların yerinə yetirilməsi ilə məşğul olurlar.

İTALYAnlar yaponlardan fərqli olaraq uşaqları “sıxışdırmağı” sevmirlər. Bu ölkədə orta məktəblərdə 3 dəfə tətil olur: Yeni il zamanı (bir neçə həftə), mart, yaxud aprel ayında (bir həftə) və yayda. Tədris ili sentyabrdan iyunadək davam edir. Uşaqlar yay ərzində dərsləri təkrar etdilər, ya etmədilər, öz məsuliyyətləridir. Adətən məktəblilər tətili öz ailələri ilə birlikdə keçirirlər.

FRANSAda tədris müəssisələrinin iş cədvəli ilə yanaşı, tətil tarixi də regiondan-regiona fərqlənir. Məktəblərdə il ərzində irili-xırdalı təqribən 5 dəfə tətil olur, ümummilli bayramlar istisna olmaqla. Valideynlər, xüsusilə analar uşaqları yayda məktəb tapşırıqlarını unutmamaları üçün nəzarətdə saxlayırlar. Ümumiyyətlə, hesab edilir ki, fransız analar digər xalqların qadınlarından daha çox uşaqlarının yaxşı təhsil almalarına “can yandırırlar”.

“Figaro” qəzetinin keçirdiyi sorğunun nəticələrinə görə, fransalı uşaqlar və onların ailələri arasında xaricdə tətil keçirmək üçün ən populyar yer... Parisin antipodu olan Nyu-Yorkdur. Fransızların bu şəhər üçün, belə demək mümkündürsə, “ürəkləri gedir”. İkinci sırada London gəlir. Gündəlik stresdən yayınmaq istəyən fransalı üçün London ideal variantdır - sürət qatarı ilə cəmi iki saatlıq yol. Üçüncü sırada isə Berlin gəlir.

⇨Ardı səh.4

# Səmərəli idarəetmə, sağlam psixoloji mühit, mənəvi-əxlaqi dəyərlər

## “Məktəb seminarları” ümumi təhsilin keyfiyyətinə birbaşa təsir göstərən amilləri diqqətdə saxlayıb

Binəqədi rayonu üzrə 276 nömrəli tam orta məktəb. Yayın qızmar günlərindən biri olsa da, sinif otaqlarından səs gəlir. Kəsik-kəsik yayılan səslərdən belə anlaşılır ki, qızğın müzakirə gedir. Adama elə gəlir ki, dərs gedir. “Yayın cırhacırında nə dərs?”, - deyə soruşursunuzsa, nəzərinizə çatdırım ki, bu da bir növ dərsdir. Dinləyicisi məktəb rəhbərliyindən tutmuş adlısanlı müəllimlər, kitabxanaçılar, psixoloqlar, fənn metodbirləşmə sədrləri, məktəb saytlarını idarə edən, məktəbin ictimaiyyətlə əlaqələrini tənzimləyən şəxslərdir. Onlar 2017-2018-ci tədris ilinin yekunlarına dair iyun ayı üçün nəzərdə tutulan “Məktəb seminarları”nın iştirakçılarıdır. Başa çatan dərs ilinin yekunlarını müzakirə edirlər. Harda səhvə yol verildi, hansı addım yerində və vaxtında atıldı, verilən qərarların səhv payı neçə faiz təşkil etdi və s. Bunu indi müəyyənləşdirmək lazımdır ki, növbəti dərs ilində belə yanlışlar təkrarlanmasın.

Bakı Şəhəri üzrə Təhsil İdarəsi də məhz bu məqsədlə artıq 4 tədris ilidir ki, paytaxtın 12 inzibati rayonunun bütün ümumtəhsil məktəblərinin pedaqoji heyətini əhatə edən “Məktəb seminarları” təşkil edir. Budəfəki müzakirələr tədrisin təşkili, məktəb imicinin formalaşdırılması, şagird nailiyyətlərinin qiymətləndirilməsi, istedadlı şagirdlərlə iş, karyera inkişafı, eksternat imtahanları, təhsil müəssisələrinin uğurlarının təbliği, ictimaiyyətlə əlaqələr işinin səmərəliliyinin artırılması, məktəb saytlarının təkmilləşdirilməsi, məktəbdənkənar fəaliyyətin düzgün planlaşdırılması və digər mövzuları əhatə edib.

Məlumat üçün bildirək ki, ənənəvi olaraq tədris ilinin əvvəlində və sonunda keçirilən müzakirələr 6, yaxud 8, hətta 10 gün ərzində davam edir və 8-10 min təhsil işçisini əhatə edir. Bu il iyunun 20-də Nəsimi rayonunda start götürən seminarlar artıq işini yekunlaşdırıb. 9 gün ərzində keçirilən seminarlara 10 minə qədər şəxs qatılıb. İyunun 29-da keçirilən sonuncu sessiya Binəqədi rayonunun ümumtəhsil məktəblərini əhatə edib.

⇨Ardı səh.2



# Cümhuriyyət qurucularının təhsil siyasəti

## 1918-1919-cu tədris ilində Gəncə gimnaziyasında cəmi 4 azərbaycanlı qız oxuyurdusa, 1919-1920-ci tədris ilində onların sayı 296 nəfərə çatmışdı

Səh.5

# Müsabiqəyə kifayət sayda vakant yer çıxarılacaq

Cari ilin iyul ayının 2-dən etibarən Təhsil Nazirliyi sisteminə daxil olan ümumi təhsil müəssisələrinə müddətsiz müqavilə ilə müəllimlərin mərkəzləşdirilmiş qaydada işə qəbuluna start verilib. Artıq 4 gündür ki, müəllimlərin işə qəbulu üzrə müsabiqənin birinci mərhələsi - elektron ərizələrin qəbulu prosesi başlayıb.

Təhsil Nazirliyinin Təhsil İşçilərinin Peşəkar İnkişafı İnstitutunun nəzdində İnsan Resursları Mərkəzinin müdir əvəzi Murad Camalzadə “Azərbaycan müəllimi” qəzetinə açıqlamasında bildirib ki, tam avtomatlaşdırılan bu mərhələdə yalnız 10 il fasiləsiz olaraq müddətsiz müqavilə ilə müəllim işləmiş və 3 ildən az müddətə işdən ayrılmış, diaqnostik qiymətləndirilmədə iştirak etmiş namizədlərdən əmək kitabçasının yüklənilməsi tələb olunur. Digər namizədlər elektron qeydiyyatdan keçərkən hər hansı sənəd yükləməyəcəklər: “Şəxsiyyət vəsiqəsinin göstəriciləri əsasında qeydiyyatdan keçmək lazımdır. Ərizələrə namizədlər onları təsdiqlədikdən sonra baxılır. Artıq 31 mindən artıq namizəd qeydiyyatdan keçib. Onlardan 23836 nəfərin ərizəsi qəbul edilib. Hazırda 4169 namizədin ərizəsinə baxılır”.

İyul ayının 8-də elektron ərizələrin qəbulu başa çatdıqdan sonra həmin ərizələrdəki göstəricilər qiymətləndirilib araşdırılacaq. Müəllimlərin işə qəbulu üzrə müsabiqənin növbəti - test imtahanı mərhələsinin iyul ayının ikinci yarısında başlaması nəzərdə tutulub. Elektron ərizəsini təsdiq edən namizədlər onlara verilən tarixdə test imtahanında iştirak edəcək, ixtisas, metodika və məntiqə aid sualları cavablandıracaqlar. İmtahanların avqust ayının 1-dək yekunlaşdırılması planlaşdırılıb.

Vakant yerlərin seçiləcəyi üçüncü mərhələdə hər namizədə 8 vakant yer seçmək şansı veriləcək, elektron yerləşdirmədən sonra isə müsahibə keçiriləcək. Sonuncu mərhələ olan müsahibə mərhələsində namizədlərin ixtisas biliyi ilə yanaşı, psixoloji durumu, ümumi dünyagörüşü komissiya tərəfindən qiymətləndiriləcək.

Proses yekunlaşdıqdan sonra vakant qalan yerlərə müəllimlərin müddətli müqavilə ilə işə götürülməsinə başlanılacaq.

⇨Ardı səh.3

# Azərbaycanlı şagirdlər Beynəlxalq Riyaziyyat Olimpiadasında ölkəmizi təmsil edəcək

7-14 iyul 2018-ci il tarixlərində Rumıniyanın Kluj şəhərində 59-cu Beynəlxalq Riyaziyyat Olimpiadası (İMO 2018) keçiriləcək. Ölkəmizi bu olimpiadada 6 nəfər şagird təmsil edəcək.

Dünyanın 116 ölkəsindən 615 məktəblinin iştirak edəcəyi bu olimpiadada şagirdlərimiz bu günədək 8 gümüş və 32 bürünc medal olmaqla 40 medal qazanıb, 2017-ci ildə isə 4 bürünc medal əldə edərək 110 ölkə arasında komanda hesabında 42-ci yerdə qərarlaşıblar. Azərbaycan məktəblilərinin Beynəlxalq Riyaziyyat Olimpiadasında ən yaxşı nəticəsi 2010-cu ildə 3 gümüş, 2 bürünc medal qazanması və ölkələr arasında 28-ci yerdə dayanması olub.

Beynəlxalq Riyaziyyat Olimpiadası ilk dəfə 1959-cu ildə Rumıniyada 4 ölkənin iştirakı ilə keçirilib. Azərbaycan məktəbliləri isə bu olimpiadada 1992-ci ildən iştirak edirlər.

## RƏSMİ XRONİKA



- Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 5-də “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 12 iyun tarixli 1189-VQ nömrəli Qanununun tətbiqi haqqında fərman imzalayıb.
- Prezident İlham Əliyev iyulun 5-də Finlandiyanın xarici ticarət və inkişaf naziri xanım Anne-Mari Viroleyninin başçılıq etdiyi nümayəndə heyətini və Dünya Səhiyyə Təşkilatının baş direktoru Tedros Adhanom Qebreyesusu qəbul edib.
- İyulun 5-də ölkə başçısı İlham Əliyev Sumqayıt Dövlət Dram Teatrının 50 illiyi, Rüstəm Gülabba oğlu Xəlilovun “Şöhrət”, Tamara İlyiniçna Sinyavskayanın “Şərəf” ordenləri ilə təltif edilmələri, Tərlan Böyükbala oğlu Qorçuya isə “Əməkdar incəsənət xadimi” fəxri adının verilməsi haqqında sərəncamlar imzalayıb.
- İyulun 4-də Prezident İlham Əliyevin yanında ölkənin enerji sistemində vəziyyətlə əlaqədar müşavirə keçirilib.
- İyulun 3-də Prezident İlham Əliyev “Azərbaycan İstilik Elektrik Stansiyası” MMC-nin yarımstansiyalarından birində baş vermiş qəza ilə əlaqədar Dövlət Komissiyasının yaradılması haqqında sərəncam imzalayıb.
- Dövlət başçısı İlham Əliyev iyulun 2-də Bakı-Quba-Rusiya Federasiyası ilə dövlət sərhədi avtomobil yolunun 6-18-ci kilometrlik hissəsinin yenidən qurulması ilə bağlı tədbirlər haqqında sərəncam imzalayıb.
- İyulun 2-də ölkə başçısı İlham Əliyev Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampa ölkəsinin milli bayramı - Müstəqillik Günü münasibətilə təbrik məktubu ünvanlayıb.
- İyunun 29-da dövlət başçısı İlham Əliyev Elektron kənd təsərrüfatının formalaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında sərəncam imzalayıb.
- Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 29-da Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin zabitlərinə ali hərbi və ali xüsusi rütbələrin verilməsi, bir qrup əməkdaşının təltif edilməsi, Kamal Qafar oğlu Qafarova isə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyində səhiyyə sahəsinin inkişafında xidmətlərinə görə “Əməkdar həkim” fəxri adının verilməsi haqqında sərəncamlar imzalayıb.
- İyunun 29-da Prezident İlham Əliyev Azərbaycan polisinin yaranmasının 100 illik yubileyi münasibətilə Azərbaycan Respublikası polis orqanlarının şəxsi heyətini təbrik edib.

# Təhsil naziri Mingəçevir şəhərində vətəndaşları qəbul edib

## Bir sıra müraciətlər yerindəcə həllini tapıb

İyunun 29-da təhsil naziri Ceyhun Bayramov Mingəçevir şəhərindəki Heydər Əliyev Mərkəzində Ağdaş, Yevlax, Bərdə rayon və Mingəçevir şəhər sakinlərini qəbul edib.

Əvvəlcə təhsil naziri Ceyhun Bayramov, Mingəçevir Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov Heydər Əliyev Mərkəzində ümummilli liderin abidəsi önünə gül dəstələri düzərək xatirəsini ehtiramla yad ediblər.

Mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin 2018-ci ilin iyun ayında şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq keçirilən qəbulda Ağdaş, Yevlax, Bərdə rayon və Mingəçevir şəhər sakinləri ilə yanaşı burada müvəqqəti məskunlaşmış məcburi köçkünlər də iştirak ediblər.

Nazir qəbula yazılmış vətəndaşların müraciət, şikayət və təkliflərini diqqətlə dinləyərək onların aradan qaldırılması, hər bir müraciətin operativ şəkildə araşdırılması, qaldırılan məsələlərin qanunvericiliyə uyğun həlli istiqamətində nazirliyin müvafiq aidiyyəti qurumlarının rəhbərlərinə konkret tapşırıqlar verib. Bir sıra müraciətlər yerindəcə həllini tapıb.



Qəbulda vətəndaşlar əsasən, müəllimlərin işə qəbulu və ya iş yerinin bir məktəbdən, həmçinin bir rayondan digərinə dəyişdirilməsi, tələbə köçürülməsi, təhsil sənədlərinin tanınması və digər məsələlərlə əlaqədar müraciət ediblər. Əksər məsələlər yerindəcə həllini tapıb, bir sıra müraciətlərlə bağlı nazirliyin müvafiq qurumlarına tapşırıqlar verilib.

# Tələbələrin köçürülməsinə başlanılıb

İyulun 5-dən tələbələrin ölkə daxilində və xaricdə yerləşən ali təhsil müəssisələrindən köçürülməsi, yaxud bir ixtisasdan digərinə dəyişdirilməsi, eləcə də ölkəmizdə yerləşən orta ixtisas təhsili müəssisələri tələbələrinin, magistratura səviyyəsində təhsilalanların köçürülməsi üzrə elektron sənəd qəbuluna başlanılıb.

Sənədlərin qəbulu *transfer.edu.az* portalı vasitəsi ilə həyata keçirilir və bu proses iyulun 20-dək davam edəcək. Portala müraciət edən şəxslər köçürülmək istədiyi təhsil müəssisəsini seçmək imkanına malikdir. Bunun üçün təhsilalanlar tələb olunan məlumatları daxil etməklə, köçürülmə meyarlarına uyğun gəlib-gəlmədiyini müəyyən edə bilərlər.

Təhsil Nazirliyi tərəfindən yaradılan *transfer.edu.az* portalı tələbələrin köçürülməsi prosesinin sadələşdirilməsinə və şəffaflığın təmin olunması məqsədinə xidmət edir.

Tələbələrin köçürülməsi Təhsil Nazirliyinin razılığı ilə qış və yay tətili dövründə həyata keçirilir. Dövlət İmtahan Mərkəzi tərəfindən keçirilən qəbul imtahanlarında tələbənin topladığı bal qəbul olunduğu ildə köçürülmək istədiyi ali təhsil müəssisəsində müvafiq ixtisas üzrə minimal keçid balından az olmamalıdır. Həmçinin tələbənin qəbul olunduğu və köçürülmək istədiyi ixtisaslar Dövlət İmtahan Mərkəzi tərəfindən müəyyən olunmuş eyni ixtisas qrupu daxilində olmalıdır.

Qaydalara əsasən, xarici ölkələrin akkreditə olunmayan ali təhsil müəssisələri tələbələrinin və digər ölkələrdə qiyabi təhsil alanların köçürülməsinə icazə verilmir. Bununla yanaşı, tələbənin təhsil aldığı ali təhsil müəssisəsinin dünyanın ən yaxşı ali təhsil müəssisələrinin reytinq siyahısında olması da nəzərə alınan göstəricilər sırasındadır. Bir ali təhsil müəssisəsindən digərinə köçürülən, ixtisasını dəyişən və tələbələr sırasına bərpa olunan şəxslər (dövlət sifarişi əsasında təhsilalanların eyni ixtisas üzrə köçürülməsi istisna olmaqla) təhsillərini yalnız ödənişli əsaslarla davam etdirirlər.

# Səmərəli idarəetmə, sağlam psixoloji mühit, mənəvi-əxlaqi dəyərlər

## “Məktəb seminarları” ümumi təhsilin keyfiyyətinə birbaşa təsir göstərən amilləri diqqətdə saxlayıb

⇦ Əvvəli səh.1

**Ruhiyyə DAŞSALAHLI**

Sessiyalarda təhsil nazirinin müavini Məhəbbət Vəliyeva, Bakı Şəhəri üzrə Təhsil İdarəsinin müvafiq struktur bölmə rəhbərləri Lamiyə Şərəfxanova, Anar Qədiməliyev, Bəşarət Məmmədov, Təlimə Dəstək Mərkəzinin (TDM) nümayəndələri, məktəb direktorları, təlim-tərbiyə və təşkilati işlər üzrə direktor müavinləri, psixoloqlar, kitabxanaçılar, uşaq birliyi rəhbərləri, fənn müəllimləri, məktəb saytlarını idarə edən şəxslər iştirak ediblər.

### “İstedadlı uşaqlarla işə ibtidai siniflərdən başlamaq lazımdır”

Daxil olduğumuz ilk otaqda moderator təhsil nazirinin müavini Məhəbbət Vəliyevadır. “Ümumi təhsildə keyfiyyət ili” çərçivəsində “Təhsil haqqında” qanuna edilmiş mühüm dəyişikliklər barədə seminar iştirakçılarına məlumat verir.

M.Vəliyeva dəyişikliklər paketini müstəqillik tarixində ilk dəfə keyfiyyətə yönələn ən vacib addımlardan biri kimi dəyərləndirib. Qanunda həyata keçirilən dəyişikliyin nəticəsi olaraq növbəti il üçün verilən tapşırıq konkret olub: məktəblərdə istedadlı uşaqlarla işə ibtidai siniflərdən başlamaq lazımdır. Uşaqların olimpiadalara hazırlığını yaxşılaşdırmaq üçün şablon testlərdən uzaqlaşıb, tətbiqi yönlü tapşırıqlara üstünlük verilməlidir.

Ümumi təhsil məktəblərində təlim-tərbiyə prosesinin təşkilindən, qiymətləndirmədə ortaya çıxan ziddiyyətlərdən, xüsusən ibtidai siniflərdə yol verilən və yuxarı siniflərdə nəzərə çarpan şişirdilməyə toxunub: “İbtidai sinif müəllimlərinin verdiyi qiymətlər yuxarı siniflərdə təsdiqini tapmır. Reallıq budur ki, vahid qiymətləndirmə standartı olmadığından məktəbdə verilən qiymətlərlə Dövlət İmtahan Mərkəzinin qiymətləndirməsində fərqlər ortaya çıxır”.

Məzmunun icrasında qiymətləndirmənin rolu, aparılma qaydaları xüsusi əhəmiyyət kəsb etdiyindən məktəbdaxili qiymətləndirmənin mövcud çətinlikləri ilə bağlı müzakirələr xeyli uzanıb. Bildirilib ki, Təhsil Nazirliyinin Təhsil İnstitutunda, müvafiq struktur bölmələrində qiymətləndirməyə yeni baxış, qiymətləndirmənin yeni qaydaları işlənib hazırlanıb. Təhsil nazirinin müavini Təhsil İnstitutunun hazırladığı yeni qiymətləndirmə standartının yeni tədris ilindən başlayaraq tətbiq ediləcəyini vurğulayıb. Həmin standartların müzakirəsində müəllimlərdən fəallıq gözlədiyini deyən M.Vəliyeva onlardan təkliflərini göndərmələrini xahiş edib.

Keyfiyyətli təhsil, birgə qərarvermə, məktəbin fəaliyyətinin dövlət standartlarına cavab verməsi baxımından dövlətin irəli sürdüyü məzmunun həyata keçirilməsi, müəllimlərin peşəkarlıq səviyyəsinin artırılması, müəllimlərin sertifikasiya qaydaları ilə bağlı yeniliklər, gələcəkdə sertifikasiya prosesinə gedəcək müəllimlərin hansı mərhələlərdən keçəcəyi, hansı kriteriyalara cavab verməli olduqları ilə bağlı məsələlər də müzakirə olunub.

Sonra ümumi təhsilin keyfiyyətinə birbaşa təsir göstərən amillərlə bağlı hər bir iştirakçının fikri soruşulub. Bu amillər, o cümlədən məktəblərin fəaliyyətində səmərəli idarəetmənin rolunun artırılması, sağlam psixoloji mühitin təmin olunması, mənəvi-əxlaqi dəyərlərin formalaşdırılması, valideyn-müəllim, müəllim-şagird münasibətlərinin tənzimlənməsi istiqamətində sistemli işin aparılması kimi mövzular ətrafında müzakirələr təşkil edilib.

### 4-cü il müzakirələri yekunlaşdı

Beləliklə,“Məktəb seminarları”nın 4-cü il müzakirələri “Ümumi təhsildə keyfiyyət ili”nin yekunlarına həsr olunub. Bu istiqamətdə il ərzində görülən işləri ümumiləşdirmək və nəticələrini müzakirə etmək, təhsildə keyfiyyətin daha dayanıqlı olmasını təmin etmək, həmçinin, ümumi təhsil sahəsində müasir dövrün çağırışlarına əsaslanmaqla inkişafı şərtləndirən keyfiyyət dəyişikliklərinə nail olmaq, bu prosesdə BŞTİ-nin və tabeliyindəki ümumi təhsil məktəblərinin pedaqoji kollektivlərinin imkanlarını səfərbər etmək əsas məqsəd olub. Odur ki, müzakirələrdə müəllimlərin və ümumiyyətlə, məktəblərin çətinlikləri, uğurları müzakirə edilib. Hansı məqamda çətinlik çəkdikləri ilə bağlı müzakirələrə daha çox vaxt ayrılıb.

Seminarın sonunda növbəti il üçün müvafiq tapşırıqlar verilib. Növbəti seminar tədris ilinin əvvəlində keçiriləcək. Planlaşdırma, qarşıda duran vəzifələrin müəyyənləşdirilməsi və hər bir vəzifənin həyata keçirilməsi istiqamətində görüləcək işlər, vəzifələrin icrası zamanı konkret şəxslərin üzərinə düşən



məsuliyyət məhz növbəti tədris ilinin əvvəlində keçiriləcək “Məktəb seminarları”nın mövzusu olacaq.

### Seminar: iştirakçılar nə ilə maraqlanırdı, nə qazandı?

Seminar göstərib ki, müəllimləri və məktəb kollektivini ən çox maraqlandıran olimpiada hərəkatı ilə bağlı yeniliklər, “Təhsil haqqında” qanuna bununla bağlı edilən dəyişikliklər, qiymətləndirmənin aparılması qaydalarıdır. Təlim-tərbiyə işləri üzrə direktor müavinləri məktəbin və tədrisin məzmununun icrasına nəzarət etdiklərindən onları daha çox qiymətləndirmə məsələləri maraqlandırıb.

Bir sözlə, məzmunun idarə edilməsində, şagird-məktəb-valideyn münasibətlərində, eyni zamanda direktorların peşəkar inkişafında, onlara verilən tövsiyələrdə bu seminarlar çox ciddi əhəmiyyət kəsb edir. Bu cür müzakirə platformaları məktəblərdə mövcud deyil. Ağır və çevik iş rejimi ilə müşayiət olunan gündəlik fəaliyyətlərində eyni rayonun, hətta qonşu məktəblərin müəllimlərinin bir araya gəlib hansısa məsələni müzakirə etmələri mümkün olmur. Məzmunla bağlı olan bu müzakirə platforması isə imkan verir ki, onlar öz çətinliklərini, əldə etdikləri nailiyyətləri, uğur hekayələrini bölüşsünlər.

İşin planlaşdırılmasında, səmərəliliyin artırılmasında, növbəti tədris ili üçün məktəbləri maraqlandıran layihələrin hazırlanmasında, qarşılaşdıqları çətinliklərin aradan qaldırılmasında, ümumiyyətlə, bir çox mənada mütləq qərar verilməsində Bakı Şəhəri üzrə Təhsil İdarəsi və Təhsil Nazirliyinə kömək edən bir proses kimi dəyərləndirilən “Məktəb seminarları” indiyədək böyük uğur qazanan layihələrdəndir.

Beləliklə, seminarda ona da qərar verilib ki, artıq məktəblər ildə iki dəfə hesabat verəcəklər. BŞTİ tabeliyində olan 317 təhsil müəssisəsi öz hesabatını müəyyən edilmiş vaxtlarda Bakı Şəhəri üzrə Təhsil İdarəsinə təqdim edəcək. Seminar iştirakçıları isə burada səslənən təklifləri, verilən tapşırıqları, müəyyənləşdirilən prioritetləri fəaliyyət planlarına daxil etməlidirlər.

# Təhsilin keyfiyyət nişanı

## 842 SABAH tələbəsi məzun oldu

⇦ Əvvəli səh.1

**Ruhiyyə DAŞSALAHLI**

Beləliklə, yüzlərlə gənc, konkret desək, 842 SABAH tələbəsi məzun olur. Bu il SABAH-ın ikinci buraxılışıdır.

### SABAH məzunlarının 3 ili

Sıra ilə düzülən masalarda SABAH məzunlarının 3 illik fəaliyyəti sərgilənir. Masalar üstündəkilərlə istər-istəməz diqqət çəkir. Sadəcə baxmağa yaxınlaşan hər kəs buradan uzun müddət ayrıla bilmir. Maraq dolu baxışlar məzunların üzünə zillənir.

Azərbaycan Dövlət İqtisad Universitetinin və Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin SABAH qrupları məzunlarının START UP layihələrinin təqdim olunduğu masada qonaqlara "Dr. Ocean" adlanan layihə barədə məlumat verirlər. Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin məzunlarının hazırladığı layihənin prototipi neft sızmalarını təyin edən cihazdır. Şotlandiyada keçiriləcək qlobal finala çıxmaq üçün Azərbaycandan seçilən 3 ən yaxşı START UP-dan biridir.

Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin tələbələri hazırladığı digər layihə - hərbi geyimlə əsgərimizi gözəgörünməz edəcəklər. Belə ki, hərbi geyimin içərisinə alavə etdikləri və çox ucuz başa gələn xüsusi material vasitəsi ilə onların termal kamerada görünməməsi təmin olunacaq.

"Təmiz ada" layihəsi isə sadəcə külək enerjisindən istifadə etməklə çirkli suları təmizləyəcək. Layihənin üstünlüklərindən biri də tətbiq ediləcəyi göllərdə xüsusi peyzaj yaradılmasıdır. Bununla da gənclərimiz çirkliliyi ilə məşhur göllərimizə gözəllik qatacaqlar. SABAH-ın məzunları iddia edirlər ki, şəhərimizdə külək "surfing"i üçün ideal şərait var və layihə ilə bu şəraiti ölkəmizin gələcək inkişafına yönəldə bilərlər. "Bu tip yarışların dənizdə deyil, göllərdə keçirilməsi məqsədəuyğun olduğundan göllərin təmizlənməsi uğurlu nəticə verə bilər. Elə isə 2030, hətta 2025-ci ildə Bakıda niyə "surfing" yarışı keçirməyək?", - deyə soruşan SABAH məzunları göllərimizdəki vəziyyəti dəyişməkdə iddialıdırlar.

UNEC-in menecment ixtisası üzrə məzunu Rafiq Məmmədli yaratdıqları elektron ticarət platforması barədə məlumat verir. Bu, Azərbaycan brendidir. İlk dəfə yaradılması və cəmi 3 aydır fəaliyyətinə baxmayaraq, artıq böyük uğurlar da qeydə alınıb: "İstifadəçilər burada məhsulları ən uyğun qiymətə ala bilirlər. Satıcılar öz mallarının qiymətini təyin edir, lakin biz onları filtrləmə yolu ilə istifadəçiyə ən sərfəli qiymətə təklif edirik".

Bakı Dövlət, İqtisad və Azərbaycan Texniki universitetlərinin masasında Natəvan Abbasova bitkilərə qulluğu asanlaşdıran mobil tətbiqetmə barədə məlumat verir. Deyir ki, bu tətbiqetmənin 3 əsas funksiyası var: evdə bitkilər üçün düzgün günəş nöqtəsini müəyyənləşdirir, gübrələmə və sulamağın qaydalarını bildirir və təqdim edilən şəkildən bitkinin adını və ona qulluq qaydasını müəyyən edir.

Vüsal Aydəmirov Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının SABAH qruplarının məzunudur. İspaniya, Rusiya, Türkiyə, Almaniya, Amerikada keçirilən beynəlxalq müsabiqələrdə qazandığı nailiyyətləri - beynəlxalq müsabiqələrdə qazandığı diplomlarını sərgiləyir.

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin tələbəsi səhnələşdirdikləri tamaşalar barədə məlumat verir. SABAH məzunu Çilənay Əliyeva deyir ki, 3 il ərzində 5 tamaşa hazırlayıblar. Həmin tamaşaları Gəncə, Lənkəran və Mingəçevir, hətta Moldova, Türkiyə, Polşa, Rusiya səhnələrində də oynayıblar. Onlara bu imkanı məhz SABAH yaradıb.

Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının SABAH qrupunun məzunları Ülkər Hümmətzadə və Nəsrin Şirinova xalçaçılıqda Şəki məktəbini yaratmaq niyyətindədirlər. Şəki xan sarayının motivləri əsasında toxuduqları xalçalardan danışarkən məlum olur ki, iddiaları çox böyükdür: "Təbriz, Bakı, Şirvan, Qazax, Qarabağın öz dəst-xətti var, istədik Şəkiyə də nəfəs qataq".

Sərgidə qonaqlara ötürülən xoş əhvali-ruhiyyə mərasimin keçiriləcəyi zalda da davam edir. Təhsil TV-nin hazırladığı SABAH qruplarının fəaliyyətini əks etdirən videoçarx ilə məzunların uğurları mavi ekranda da canlanır.

Və təntənəli ikinci "Məzun günü" başlayır.

Əvvəlcə Azərbaycanın Birinci vitse-prezidentinin köməkçisi Yusuf Məmmədəliyev səhnəyə dəvət olunur. O, Birinci vitse-prezident Mehriban Əliyevanın "SABAHın məzunu" mərasimi iştirakçılarına müraciətini oxuyur.

Mehriban Əliyevanın müraciətində SABAHa böyük ümidlər var: "SABAH qrupları ali təhsil müəssisələrində yeni və fərqli bir akademik mühit yaradaraq savadlı, bacarıqlı, ən əsası, əmək bazarının tələblərinə cavab verən kadrlar yetişdirib. Yaradılmış bu şəraitdən yararlanaraq məzun olmaq bir uğurdur və bu, sizin peşəkar inkişafınızda müstəsna rol oynayacaq. Əminəm ki, sizin hər biriniz bu imkandan düzgün şəkildə istifadə edərək, arzuladığınız peşəkar fəaliyyətlə məşğul olacaqsınız".

Müraciətdə daha sonra bildirilir ki, Prezident İlham Əliyev tərəfindən 2013-cü ildə imzalanan "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"na əsasən, ölkəmizdə təhsil sahəsində bir sıra əsaslı islahatlar keçirilib və bu proses indi də davam edir: "Bizim əsas hədəflərimizdən biri universitetlərdə tədrisin keyfiyyətini artırmaq və qlobal əmək bazarının tələblərinə cavab verən məzunlar yetişdirməkdir. "Təhsil millətin gələcəyidir" - məhz bu fikri əsas tutaraq ölkə rəhbərliyinin başçılığı ilə son illərdə təhsil sahəsində bir sıra yüksək göstəricilərə nail olmuşuq. Bu gün Azərbaycanda savadlılıq demək olar ki, 100 faiz təmin olunub. Belə bir mühit ilk növbədə sizə - gənclərə çoxsaylı imkanlar yaradır. Təbii ki, ölkəmiz son illər ərzində bütün sahələr üzrə inkişaf edir. Prezident İlham Əliyevin söylədiyi kimi, biz elə etməliyik ki, bu inkişaf dayanıqlı olsun. Buna nail olmaq üçün isə, əlbəttə ki, gənclər bilikli olmalıdır. Bu fikir, şübhəsiz, bizim gələcəyə baxışımızı və hədəflərimizi müəyyən edir".

### Məqsədə gedən yol əlçatandır...

Daha sonra çıxış edən təhsil naziri Ceyhun Bayramov təhsilin inkişafının ölkəmiz üçün bütün dövrlərdə müstəsna əhəmiyyət kəsb etdiyini vurğulayıb. Nazir ölkə Prezidenti İlham Əliyevin "qara qızılın insan kapitalına çevrilməsi" konsepsiyasının dövlət siyasətinin mühüm tərkib hissəsinə çevrildiyini, həyata keçirilən təhsil islahatlarının məhz bu məqsədə xidmət etdiyini diqqətə çatdırıb.



3500-dən artıq Azərbaycan gəncinin dünyanın aparıcı ali təhsil müəssisələrində təhsil aldığını xatırladan nazir qeyd edib ki, SABAH layihəsi beynəlxalq təcrübənin öyrənilməsi ilə yanaşı, məhz Azərbaycanın dəyərləri və ölkə qarşısında duran məqsədlər nəzərə alınaraq yaradılmış bir təhsil modelidir. O, SABAH qruplarında yaradılan şəraitdən də danışıb. Elə bu şəraitin, davamlı dəstəyin nəticəsidir ki, SABAH məzunlarına əmək bazarında böyük tələbat var. 2017-ci ildə ali təhsil müəssisələrini bitirmiş 721 SABAH məzununun 37 faizi Azərbaycanda, 16 faizi xarici ölkələrdə magistratura səviyyəsində təhsilini davam etdirir, 30 faizdən çoxu isə peşəkar həyata qədəm qoyub: "Elə bir dövrdə yaşayırıq ki, məzun üçün uğurlu iş yerində çalışmaq yeganə məqsəd ola bilməz. İş yeri yaratmaq, ölkənin ictimai həyatında fəal mövqe tutmaq vacib amillərdəndir. Bu mənada SABAH tələbələrinin aşağı kurslardan etibarən informasiya texnologiyalarını mənimsəmələri, sənaye və biznes sahəsinə aid START UP layihələrinin müəllifləri kimi çıxış etmələri, elm və tədqiqat sahəsində olan çoxsaylı uğurlara imza atmaları təqdirəlayiqdir. Onların ölkəmizdə keçirilən böyük beynəlxalq tədbirlərdə, sosial layihələrdə könüllü kimi iştirak etmələri, dünyanın ayrı-ayrı ölkələrinə səfərləri, SABAH rəssamlarının əsərlərinin Böyük Britaniya Ənənəvi İncəsənət üzrə Şahzadə Məktəbinin sərgisində nümayiş etdirilməsi, musiqiçilərin Almaniya, ABŞ, Polşa, Bolqarıstan kimi ölkələrdə keçirilən beynəlxalq müsabiqələrdə qalib yerlər tutması onların keyfiyyətli təhsil almalarının təsdiqidir. Təbii ki, bu uğurlarda təhsil müəssisələrində yaradılan mühit danılmazdır".

Təhsil naziri onu da qeyd edib ki, təhsilin yeganə məqsədi savadlı və bacarıqlı mütəxəssis yetişdirməkdən ibarət ola bilməz: "Təhsilin keyfiyyətini müəyyənləşdirən vacib amillərdən biri gənc nəsli layiqli vətəndaş və şəxsiyyət kimi formalaşdırmaqdır. Biz belə bir cəmiyyət qurmaq istəyirik. Arzu etdiyimiz mühitə isə təkbaşına nail ola bilmərik. Buna səylərimizi birləşdirərək nail olmalıyıq. Dünyada sabitliyə təhdidlərin artdığı bir zamanda müstəqilliyinin 27-ci ilini yaşayan Azərbaycan Respublikası günü-gündən qüdrətlənir. Bu ölkənin gələcək inkişafı isə məhz sizin əlinizdədir. Əminəm ki, uğurlu fəaliyyətinizlə davamlı olaraq sizə göstərilən qayğını doğruldacaqsınız".

C.Bayramov SABAH məzunlarına tövsiyə verərək deyib ki, hər məqsəd əlçatandır, əsas odur ki, insan öz missiyasını düzgün müəyyənləşdirsin: "Hər bir məqsəd zəhmət, ona çatmaq istiqamətində ardıcıl fəaliyyət və ağıl nəticəsində əlçatandır. Önəmli odur ki, həyatda missiyanızı düzgün müəyyənləşdirəsiniz. Sizə dəstək olanlara ehtiram göstərib, xalqınıza ləyaqətlə xidmət göstərəsiniz".

Müasir və sürətlə dəyişən dünyada uğura gedən yolun peşəkar bilik və bacarıqların, innovasiyalara açıq olmaq qabiliyyətinin birliyindən keçdiyini deyən təhsil naziri bu yolda hər bir SABAH məzununa uğurlar arzulayaraq onları təbrik edib.

### SABAHın açarı ötürüldü

Mərasimdə təhsil aldıqları müddətdə ən yüksək akademik göstəricilər əldə edən SABAH məzunlarına sertifikatlar təqdim olunub.

SABAHın məzunları - Bakı Musiqi Akademiyasının tələbəsi Vüsalə Babayeva və Azərbaycan Dövlət İqtisad Universitetinin tələbəsi Samir Hüseynov onlar üçün yaradılan imkanlardan, bu qruplarda müasir dünyanın tələblərinə cavab verən yüksək hazırlıqlı mütəxəssislərin yetişməsi üçün münbit şəraitin olmasından danışıb, əldə etdikləri bilik və bacarıqların gələcək karyeralarında əhəmiyyətli rol oynayacağını qeyd ediblər. Onların sözlərinə görə, SABAH qruplarında təhsil almağın fərqini elə ilk gündən hiss ediblər. Burada onlara sadəcə nəzəri bilik deyil, öyrəndiklərini təcrübədə tətbiq etmək imkanı verilib. Beynəlxalq layihələrə qatılmaq, Londonda keçirilən yay məktəbində iştirak şansı isə SABAH məzunlarının həyatında unudulmaz iz buraxıb.

Sonra onlar rəmzi SABAH açarını III kurs tələbələrinə təhvil veriblər.

Sonda SABAH qruplarının himni səslədirilib.

# Müsabiqəyə kifayət sayda vakant yer çıxarılacaq

⇦ Əvvəli səh.1

**Ruhiyyə DAŞSALAHLI**

## Namizədlər keçid balı toplamadıqları vakant yeri seçə bilməyəcəklər

Müsabiqələrin keçirilməsində effektivliyin artırılması, daha mütərəqqi proseslərin həyata keçirilməsi üçün qaydalarda mütəmadi dəyişikliklər edilir. M.Camalzadənin sözlərinə görə, həyata keçirilən son dəyişikliklər, atılan hər addım müəllimlərin işinin asanlaşdırılmasına, həyat şəraitinin yaxşılaşdırılmasına hesablanıb: "Bu il müsabiqədə iştirak edən namizədlərin topladığı bal iki tədris ili qüvvədə olacaq. Namizəd növbəti il test imtahanına qatılmadan builki balla müsabiqədə iştirak edə biləcək. 10 ildən artıq pedaqoji təcrübəsi olan və 3 ildən az müddətdə işdən ayrılan şəxslərə isə diaqnostik qiymətləndirmə balı əsasında bu müsabiqədə iştirak etmək hüququ verilib. Bu da həmin müəllimlərin işlə təmin olunması və sosial vəziyyətlərinin yaxşılaşdırılmasında əhəmiyyətli rol oynayacaq".

Vakant yerlərlə bağlı narahatlıqları da qeyd edən M.Camalzadə vakant yerlərin toplanılması işinə çox ciddi nəzarətin həyata keçirildiyini vurğulayaraq, namizədləri ümidsizliyə qapılmamağa çağırıb: "Bəzi müəllimlər düşünürlər ki, vakant yer yoxdursa, keçid balı toplasalar belə, imtahanda iştirak etməyin əhəmiyyəti yoxdur. Ancaq namizədlər bilməlidirlər ki, ötən ay başa çatan müəllimlərin yerdəyişməsi müsabiqəsində olduğu kimi, müəllimlərin işə qəbulu üzrə müsabiqəyə də kifayət sayda vakant yer çıxarılacaq. Odur ki, namizədlər ümidsizliyə qapılmasınlar. Bu il imtahanlarda topladıqları bal əsasında həm il ərzində çıxarılacaq vakansiyalara müddətli müqavilə ilə işə girmək üçün müraciət edə, həm də növbəti işə qəbul üzrə müsabiqədə iştirak edə bilərlər".

Müsabiqədə ən çox müşahidə edilən səhvləri də qeyd edən M.Camalzadənin sözlərinə görə, namizədlər topladığı bala uyğun olan yerləri seçmirlər: "Ən çox rast gəlinən yanlışlardan biri odur ki, namizədlər keçid balı toplaya bilmədikləri yerləri seçdikləri üçün yerləşdirilmirdilər. Bu tendensiyanın qarşısını almaq üçün bu il texniki müdaxilə etmək məcburiyyətində qaldıq. Artıq namizədlər keçid balı toplamadıqları vakant yeri seçə bilməyəcəklər. Proqram təminatı keçid balının həmin vakansiyanı seçməyə imkan vermədiyi barədə namizədə xəbərdarlıq edəcək. Bunun sayəsində namizədlər indiyədək müşahidə etdiyimiz səhvləri etməyəcək və seçim imkanı olan 8 şansdan daha səmərəli yararlana biləcəklər. Lakin namizədlərdən xahişimiz budur ki, işləməyəcəkləri, heç tanımadıqları müəssisələrdəki yerləri seçməsinlər. Tanımadığı məktəbi seçir, yerləşdirilir və sonradan imtina edirlər. Nəticədə həmin yer vakant qalır. Ən yaxşı halda həmin yerə il ərzində müddətli müqavilə ilə müəllim götürülür. Lakin Təhsil Nazirliyi vakant yerlərə müddətli müqavilə ilə deyil, daimi əsaslarla müəllim qəbul edilməsində maraqlıdır".

Bütün bölgələr üzrə ümumi təhsil müəssisələrində vakant yerlərin olduğunu qeyd edən M.Camalzadə ən çox ehtiyac hiss edilən fənlər barədə də məlumat verib: "Ümumilikdə ibtidai sinif, xüsusən, rus bölməsində ibtidai sinif, fiziki tərbiyə, texnologiya, musiqi, ingilis dili, Azərbaycan dili müəllimliyi üzrə vakansiyalar var".

# TOPs proqramının 4-cü mövsümünə yekun vurulub

İyunun 29-da Təhsil Nazirliyi, "British Council", Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası, "İnkişaf Naminə İdman" İctimai Birliyinin birgə həyata keçirdiyi TOPs proqramının 4-cü mövsümünün başa çatması ilə əlaqədar mərasim keçirilib.

Təhsil nazirinin müavini Firudin Qurbanov tədbirdə çıxış edərək şagirdlərin fiziki sağlamlığı, psixoloji dayanıqlılığı, təlim nailiyyətlərinin bədən tərbiyəsi və idman vasitəsi ilə yüksəldilməsinin müasir təhsil üçün prioritet istiqamətlərdən biri olduğunu diqqətə çatdırıb. 2014-cü ildə Bakı şəhərinin 3 ümumtəhsil məktəbində pilot layihə kimi start verilən və hazırda 140000-dən artıq şagirdin yararlandığı TOPs proqramının əhəmiyyətindən söz açan nazir müavini onun əhatə dairəsinin getdikcə genişlənməsinin təqdirəlayiq olduğunu söyləyib.

Nazir müavini bildirib ki, artıq fiziki tərbiyə dərslərində TOPs metodologiyasının tətbiqinin gətirdiyi inkişaf və yeniliklər müşahidə olunur. Bu metodikanın tətbiqi ilə keçirilən fiziki tərbiyə dərslərində şagirdlər daha çox iştirak etməyə meyil göstərirlər. Proqramın inklüziv tədrisi də əhatə etməsi isə çox müsbət haldır.

Qeyd olunub ki, layihə çərçivəsində həmin məktəblərin fiziki tərbiyə və ibtidai sinif müəllimləri üçün təlimlər təşkil edilib. Təlimlərin məqsədi fiziki tərbiyə dərslərini tədris edən müəllimlərin peşə bacarıqlarının artırılması və tədrisin keyfiyyətinin yüksəldilməsidir. Təlimlərdə, həmçinin, müəllimlərə fiziki tərbiyənin tədrisində müasir təlim üsullarının tətbiq edilməsi üçün milli kurikuluma uyğunlaşdırılmış metodiki tədris kartları da təqdim edilib. Bu təlimləri uğurla başa vurmuş 470 müəllimə müvafiq sertifikatlar verilib.

Firudin Qurbanov onu da bildirib ki, layihə "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"na uyğun olaraq, müvafiq tədbirlər və fəaliyyət istiqamətləri nəzərə alınaraq keçirilir.

"British Council"in Azərbaycan Nümayəndəliyinin direktoru Elizabet Uayt TOPs layihəsinin ölkəmizdə böyük uğurla həyata keçirildiyini qeyd edərək Britaniya təcrübəsinin Azərbaycan məktəbliləri üçün də faydalı olduğunu bildirib. Elizabet Uayt Azərbaycan müəllimlərinin yeni metodiki biliklərə və bacarıqlara yiyələnmələrinə imkanlar yaratdığına görə tərəfdaşlara təşəkkür edib.

Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının prorektoru Təhminə Tağızadə akademiyanın fəaliyyət istiqamətlərindən söz açıb. Qeyd olunub ki, ali təhsil ocağının bu layihəyə qoşulmaqda məqsədi fiziki tərbiyə müəllimlərinin praktiki peşə hazırlığına dəstək olmaqdır.

Sonda TOPs layihəsi çərçivəsində 2016-2017-ci tədris ilində keçirilmiş 4 nominasiya üzrə müsabiqənin qaliblərinə mükafatlar, həmçinin layihə üzrə təşkil olunan təlim kursunu müvəffəqiyyətlə bitirən müəllimlərə sertifikatlar təqdim edilib.

"British Council"ın Azərbaycan Nümayəndəliyinin direktoru Elizabet Uayt isə ölkəmizin ümumtəhsil məktəblərində fiziki tərbiyənin inkişafına verdiyi töhfələrə görə tərəfdaşlar adından təşəkkürnamə plaketi ilə təltif olunub.

Məlumat üçün bildirək ki, 2017-2018-ci tədris ilində TOPs layihəsinə 78 ümumtəhsil məktəbi qoşularaq proqramda iştirak edən məktəblərin sayı 150-yə çatdırılıb. Bu məktəblər Bakı və Sumqayıt şəhərlərini, Abşeron, Qobustan, Şamaxı, İsmayıllı, Qəbələ, Qubadlı və Laçın rayonlarını əhatə edir.

Proqram ümumtəhsil məktəblərində fiziki tərbiyə fənnini tədris edən müəllimlərin TOPs metodologiyası ilə bilik və bacarıqlarının zənginləşdirilməsi, həmçinin, şagirdlərin sağlamlığının möhkəmləndirilməsi məqsədi ilə həyata keçirilir. Bu metodika fiziki tərbiyədə həm də inklüziv tədrisin həyata keçirilməsini təmin edən təlim metodlarını da özündə birləşdirir.



# Hərənin öz yayı

Əvvəli səh.1

## Tətil məktəblilər üçün yalnız istirahət demək deyil

**Rüstəm QARAXANLI**

Fransalı valideynlər Berlin divarlarının qalıqlarını uşaqlara göstərməyi sevirlər. Bundan əlavə, Almaniya paytaxtı tədricən Avropanın musiqi və mədəniyyət mərkəzinə çevrilməkdədir.

İSPANİYA məktəbliləri üçün yay 22-23 iyunda “başlayır”. Yeni tədris ili isə sentyabrın ortalarında. Bu baxımdan ispan uşaqların yay tətilinin bizə nisbətən qısa olduğunu deyə bilərik. Əksər hallarda məktəblilər yayı nənə və babaların yanında keçirirlər, çünki valideynlər işləyir. Ancaq bu ölkədə “kampamento” adlanan yay düşərgələri çox populyardır. Adətən ölkənin gözəl təbiətli yerlərində təşkil edilən düşərgələrdə uşaqlar milli rəqslər oynamağı və mahnılar ifa etməyi öyrənirlər. Yay aylarında əcnəbi dillər öyrədən xüsusi düşərgələr də çox populyardır.

ABŞ-da məktəb tətilləri bir növ ümummilli bayramlara “bağlıdır”. Məsələn, Yeni il, yaxud pasxa dövrü. Amerikalılar uşaqlara azadlıq verməyi sevirlər. İlk baxışda adama elə gələ bilər ki, Amerika məktəbliləri az istirahət edirlər. Ancaq heç də belə deyil. Yay tətili burada iyunun ortalarında başlayır və avqustun sonunadək davam edir.

Amerikada uşaqlar, yaxud tələbələr yay tətilini əsasən öz ölkələrində keçirirlər. Ancaq ölkə də var ölkə! Kaliforniya və Floridanın istirahət güşələrindən tutmuş Havay adalarınadək. Hər bir amerikalı ailə həyatda heç olmasa bir dəfə “Disneylend"də olmalıdır. Ümumiyyətlə, amerikalılar əylənməyi çox sevirlər, ona görə də dünyanın istənilən ölkəsində yaşayan amerikalı mütləq övladını əyləncə mərkəzlərinə aparmalıdır.

ABŞ-da yayda icarəyə avtobus götürmək dəbdir. Söhbət adi avtobuslardan getmir - ailənin avtomobildən ev kimi istifadə edə biləcəyi nəqliyyat vasitəsindən gedir. Ölkə böyük olduğundan ailələr uzunmüddətli səyahətə çıxırlar və uşaqlar həmişə valideynlərinin yanında olurlar.

Biz burada istilərdən şikayətləndiyimiz vaxt AVSTRALİYAda uşaqlar qısamüddətli qış tətilindən həzz alırlar. Oradakı yayda isə məktəblilərin tətili o qədər də uzun çəkmir - cəmi bir ay. Ancaq burada hesab edirlər ki, uşaq hətta istirahət etdikdə belə nəyisə öyrənməlidir. Bu səbəbdən məktəblilər üçün ölkəboyu müxtəlif festivallar və idman yarışları təşkil edilir.

BRİTANİYAlılar tətil və istirahət məsələsinə də vətənpərvərlik prizmasından yanaşır və uşaqlarına aşılamağa çalışırlar. Tətil evdən kənarda keçirilsə də, vətən daxilində olmalıdır. Hesablamalara görə, hər il təqribən 25 milyon nəfər meqapolisləri tərk edib ölkənin cənub-şərqindəki sahillərə doğru üz tutur. “Komsomolskaya pravda” yazır ki, britaniyalıların 15%-i tətili Uels və Şotlandiyada, 8%-i isə göl və yaxud çay yaxınlığında keçirməyi sevir. Hər bir britaniyalının fəxr etdiyi milli parklar uşaqların aparıldığı ən populyar yerlərdir. Tarix, təbiət mövzusunda əlavə məlumat almaq üçün bu yerlər ideal hesab olunur.

Maliyyə böhranı ilə əlaqədar Britaniya sakinləri üçün gedib ABŞ-da şoppinq etmək sərfəli olub. Xeyli britaniyalı bu imkandan istifadə edir. Pal-paltar alış-verişində isə, bildiyimiz kimi, ən çox elə uşaqlara xərc çəkilir.

ALMANİYAda yay tətili bizdəki ilə üst-üstə düşür. Təəccüblü olsa da, alman uşaqları yay tətilindən ən çox pul qazanmaq üçün istifadə edirlər. Supermarketlərdə, kinoteatr kassalarında, ev işlərində, poçtda, yaxud restoranda yay vaxtı ən çox pul qazanmağa çalışan alman uşaqlardır. Statistikaya görə, alman ailəsi səyahətə pul xərcləmək üzrə lider mövqelərdədir. Uşaqlarını da götürüb xaricə tətilə gedən almanlar üçün ən populyar istiqamət İspaniyadır. Axın o qədərdir ki, buradakı otellərin personalı mükəmməl almancaya malikdir. Bundan əlavə, Almaniyada Türkiyə istiqaməti də məşhurdur ki, bu da ölkədəki türk mənşəli vətəndaşların sayına nəzər salanda qeyri-adi görünmür.

# Yeni məktəb binasında tamamlama işləri görülür

Qobustan şəhər 3 nömrəli tam orta məktəbi üçün inşa edilən 624 şagird yerlik yeni məktəb binasında son tamamlama işləri görülür.

Rayon təhsi şöbəsindən aldığımız məlumata görə, təzə bina Təhsil Nazirliyinin sifarişi ilə tikilir. Müasir memarlıq üslubuna malik təhsil ocağı üçmərtəbəlidir. Geniş və işıqlı sinif otaqları, fənn kabinetləri, laboratoriyalar, kompüter otağı, qış idman zalı, konfrans zalı və sair tədrisin yüksək səviyyədə təşkilinə imkan verəcək.

Tam orta məktəb üçün təzə binanın bu ilin noyabrınadək istifadəyə verilməsi nəzərdə tutulub.

# Məktəbdə əsaslı təmir işlərinə başlanılıb

Salyanın 480 şagird yerlik Sarvan kənd tam orta məktəbində əsaslı təmir işlərinə başlanılıb.

Təhsil şöbəsindən aldığımız məlumata görə, 1974-cü ildə istifadəyə verilən məktəb binasında 44 il ərzində bir dəfə də olsun əsaslı təmir işləri aparılmayıb. Bu da məktəbdə təhsilin yüksək səviyyədə təşkilində müəyyən çətinliklər yaradır, təhsil islahatı ilə bağlı qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsinə mənfi təsir göstərirdi. Təhsil ocağında yaranmış çətinlik nəzərə alınaraq artıq məktəb binasında təmir işlərinə başlanıb.

Təmir zamanı məktəb binasının su, qaz, elektrik xətləri, dam örtüyü, qapı və pəncərələri yeniləşəcək, isitmə və havalandırma sistemi qurulacaq, sinif otaqları, fənn kabinetləri, idman və akt zalları, dəhliz və digər yardımçı otaqlar, demək olar ki, yenidən tikiləcək. Təhsil ocağının yeni avadanlıq və inventarlarla təchiz olunması da nəzərdə tutulub. Məktəbin ərazisində də müəyyən abadlıq işləri aparılacaq, yeni idman qurğuları quraşdırılacaq. Bir sözlə, məktəbdə şagirdlərin normal təhsil almaları üçün hər cür şərait yaradılacaq.

Məktəb binası bu ilin sentyabrında müəllim və şagird kollektivinin istifadəsinə veriləcək.

# “İcmalar üçün ingilis dili”

Təhsil Nazirliyi və BP tərəfindən həyata keçirilən “British Council” “İcmalar üçün ingilis dili” layihəsinin yekunu olaraq layihədə iştirak etmiş müəllimlərlə görüş keçirilib. “British Council” əməkdaşlarının iştirakı ilə keçirilən görüşdə müəllimlərin ingilis dili və metodiki bacarıqları üzrə test nəticələri müzakirə olunub.

Görüş zamanı qeyd edilib ki, layihədə 15 müəllim, 3 məktəb direktoru və icma üzvləri iştirak edib. Daha sonra keçirilmiş təlimlər və aparılmış test yoxlamalarının nəticələri ilə bağlı müzakirələr aparılıb.

Görüşün sonunda “İcmalar üçün ingilis dili” layihəsində iştirak etmiş şəxslər “British Council” tərəfindən sertifikatla mükafatlandırılıb.

**Nurəddin BABAYEV,**
*Samux Rayon Təhsil Şöbəsinin ictimaiyyətlə əlaqələr üzrə məsul şəxsi*

# Təhsildə İnkişaf və İnnovasiyalar üzrə 2-ci qrant müsabiqəsinin qalib layihələri

## “STEM Azərbaycanda 2018” Müəllim Konfransı keçiriləcək

Məlum olduğu kimi, Təhsil Nazirliyi tərəfindən keçirilən Təhsildə İnkişaf və İnnovasiyalar üzrə 2-ci qrant müsabiqəsinin nəticələri elan olunub. Təşkilat Komitəsi Ekspert Qrupunun rəyi əsasında ümumi təhsil müəssisələri kateqoriyası üzrə 41, fərdi kateqoriya üzrə 125 layihənin dəstəklənməsini məqsədəuyğun sayıb. Fərdi kateqoriya üzrə qalib layihələrdən biri 1-ci qrant müsabiqəsi çərçivəsində uğurla həyata keçirilmiş “STEM Azərbaycanda” layihəsinin məntiqi davamı olan “STEM Azərbaycanda 2018” Müəllim Konfransı layihəsidir.

Layihənin rəhbəri Sumqayıt şəhəri, İ.Qayıbov adına 1 nömrəli tam orta məktəbin fizika müəllimi Aliyə Əhmədovadır. Layihənin icrası 20 iyun-20 sentyabr 2018-ci il zaman intervalında nəzərdə tutulub.

Qafqaz regionunda ilk dəfə olaraq həyata keçiriləcək konfransın məqsədi STEM təlim texnologiyasının yeni təhsil proqramına inteqrasiya edilməsi, təhsilalanları XXI əsr bacarıqlarının formalaşdırılmasının əhəmiyyyəti istiqamətində maarifləndirməklə, özündə müxtəlif STEM məzmunlu panellər birləşdirən müəllim konfransının təşkil edilməsidir. Konfransda təhsil müəssisələrinin riyaziyyat, kimya, fizika, biologiya, coğrafiya, texnologiya, informatika, həyat bilgisi və ibtidai sinif müəllimlərinin iştirakı nəzərdə tutulub. Konfransın 2 sentyabr 2018-ci il tarixində Sumqayıt şəhərində keçirilməsi planlaşdırılıb. Konfransda iştirak formaları barədə ətraflı məlumat və qeydiyyat forması layihənin saytında *(www.stemazerbaycanda.com)* və facebook sosial səhifəsində yerləşdirilmişdir.

Qeyd edək ki, konfransa göndərilmiş məqalələr seçilərək toplu şəklində çap ediləcək və iştirakçılar sertifikatla mükafatlandırılacaq.

## “Xüsusi təhsilə cəlb olunan şagirdlərlə iş” layihəsinin açılışı

**Şakir CƏFƏROV**

Təhsil Nazirliyinin elan etdiyi Təhsildə İnkişaf və İnnovasiyalar üzrə 2-ci qrant müsabiqəsinin qalibi olan “Xüsusi təhsilə cəlb olunan şagirdlərlə iş” layihəsinin açılışı keçirilib.

İyulun 2-də Göygöl şəhər 6 nömrəli tam orta məktəbdə keçirilən açılış mərasimində layihədə fərdi təhsilə cəlb olunan şagirdlər, onların valideynləri və məktəbin müəllimləri iştirak ediblər.

Rayon təhsil şöbəsinin ictimaiyyətlə əlaqələr üzrə məsul şəxsi Raminə Məmmədovadan aldığımız məlumata görə, layihənin keçirilməsində məqsəd evdə fərdi təhsilə cəlb olunan şagirdlərin müxtəlif yaradıcılıq işlərinə və ekskursiyaya cəlb olunması, psixoloqla görüş vasitəsilə, həmçinin öz həmyaşıdları ilə bir məkanda olmaqla cəmiyyətə inteqrasiya olunması, müxtəlif bacarıqlarının inkişaf etdirilməsi, yaradıcılıq sahələrinə meyil və maraqlarının formalaşdırılmasıdır.

Layihə çərçivəsində özünü inkişaf, motivasiya, əl qabiliyyətinin artırılması barədə şagirdlər üçün qısamüddətli təlimlər keçiriləcək.

Müəyyən olunmuş vaxtlarda şagirdlərin tarixi memarlıq abidələrinə ekskursiyası təşkil ediləcək. Göygöl Tarix Diyarşünaslıq Muzeyi, Nizami Gəncəvi Məqbərəsi, Gəncə Şəhər Heydər Əliyev Park-Kompleksi, Şah Abbas Məscidi, Cavad Xan Türbəsinə maarifləndirici gəzinti təşkil olunacaq.

## İsmayıllıda məktəblilərin “Girdiman” bələdçi klubu yaradılır



Azərbaycan Respublikası Təhsil Nazirliyinin Təhsildə İnkişaf və İnnovasiyalar üzrə 2-ci qrant müsabiqəsi çərçivəsində “Məktəblilərin “Girdiman” bələdçi klubunun yaradılması və davamlı fəaliyyətinin təşkil edilməsi” layihəsinin icrasına başlanılıb.

Layihənin əsas məqsədi İsmayıllı şəhər İsrayıl Həsənov adına 1 nömrəli tam orta məktəbin nəzdində “Girdiman” bələdçi klubunu yaratmaq, müəllimlər, məktəblilər və valideynlərlə birlikdə ekskursiyalar təşkil etməkdir. Məktəblilər, müəllimlər və valideynlərlə işləyərək məktəbin foyesində açıq muzey kimi sərgilənən, təsadüfən aşkar olunmuş arxeoloji, eləcə də etnoqrafik materialları araşdırmaq, etnoqrafik sorğular keçirmək, Mollaisaqlı kəndinin tarixini, folklorunu araşdırmaq, məktəblilərə qədim tariximizi, memarlıq abidələrimizi və folklorumuzu sevdirmək, onların folklor oyun və tamaşalarını hazırlamaq, fəal şagirdlərin təşkil olunan tədbirlərdə iştirakına kömək olmaqdır.

Layihənin rəhbəri İsmayıllı şəhər İsrayıl Həsənov adına 1 nömrəli tam orta məktəbin tarix müəllimi Təranə Yusifova, layihənin eksperti tarix üzrə fəlsəfə doktoru Fariz Xəlillidir.

İyunun 30-da sözügedən məktəbdə layihə iştirakçıları ilə ekspert Fariz Xəlillinin görüşü keçirilib. Layihənin rəhbəri, məktəbin tarix müəllimi Təranə Yusifova bildirib ki, mədəni irsimizi, tariximizi və folklorumuzu təbliğ etməyə ən aşağı yaşlardan başlanmalı, məktəblilərin bilik və bacarıqlarını inkişaf etdirmək, onları maarifləndirmək üçün dərslərlə yanaşı müxtəlif sinifdənxaric və məktəbdənkənar fəaliyyətlərin imkanlarından istifadə olunmalıdır. Eyni zamanda mədəni irsimizin araşdırılması və tədqiq edilərək öyrənilməsi şagirdlərdə məlumatlılıq səviyyəsinin artması ilə bərabər gələcəkdə onların müəyyən ixtisaslara maraqlarının yaranmasına da istiqamət verir. Layihə rəhbəri məhz bu məqsədlə İsrayıl Həsənov adına 1 nömrəli tam orta məktəbin nəzdində “Girdiman” bələdçi klubu yaratmağı planlaşdırdıqlarını bildirib və bu istiqamətdə görüləcək işlər barədə məlumat verib. Qeyd edib ki, klubun tərkibinə aktiv məktəblilər, maraqlı müəllimlər və valideynləri daxil edərək məktəbin tarix otağına rayonun sakinlərində saxlanılan etnoqrafik materialları toplamaq niyyətindədirlər. Bu, məktəbdə dərslərin tədrisində əyaniliyi təmin etməyə imkan yaradacaq, eyni zamanda şagirdlərin tarixi abidələrimizi daha yaxşı tanımalarına səbəb olacaq. Ekskursiya qrupunun üzvləri etnoqrafik sorğular keçirəcək, tarixi abidələrimizi, tarixi sənət növlərimizi araşdıracaq. Həm müəllimlər, həm valideynlər, həm də məktəbliləri tarixi abidələrimizlə bağlı məqalə və esselər yazmağa, rəsm və fotolar çəkməyə həvəsləndirmək planlaşdırılıb. Ekskursiyalarda ən azı 30 nəfər iştirak edəcək. “Girdiman” bələdçi klubunun araşdırmaları ilə bağlı hesabat formalı tədbirdə isə həm bu məktəbin, həm də digər məktəblərin şagirdləri dəvət ediləcək. Hesabat tədbirində ekskursiyalar təşkil edilərək araşdırmalar aparılmış, tarixi abidələrimizin, mədəni irsimizin öyrənilməsi ilə bağlı kataloq və flayeri də təqdim ediləcək.

Layihənin eksperti Fariz Xəlilli İsmayıllının zəngin maddi-mədəni irsinin zəif öyrənilməsindən təəssüfləndiyini bildirib. Qeyd edib ki, Lahıc və Basqalın, Cavanşir və Qız qalalarının indiyə qədər arxeoloji baxımdan öyrənilməməsi tariximizdə qaranlıq səhifələrin varlığını göstərir. Mollaisaqlı və Hacıhətəmlinin antik dövr qəbiristanlıqları müəyyən qədər öyrənilsə də yaşayış yerləri hələ tapılmayıb. Diyallı və Həftəsov ərazisində dağılmaqda olan məscid və hamamlar da İsmayıllının mədəni irsinə qayğının artırılmasını şərtləndirir. Fariz Xəlilli bildirib ki, “Girdiman” bələdçi klubu mədəni irsə ictimai münasibəti təkcə öyrənməyəcək, həm də onun yeniyetmələr arasında təbliğini gücləndirəcək, onları təşkilatlandıracaq.

Məktəbin direktoru Gündüz Qədirov layihənin aktuallığından və əhəmiyyətindən bəhs edərək şagirdlərin layihədə fəal iştirak edəcəklərinə, maraqlı təcrübə qazanacaqlarına və fərdi bacarıqlarını inkişaf etdirəcəklərinə əminliyini ifadə edib.

Rayon təhsil şöbəsinin aparıcı məsləhətçisi Ramiz Baloğlanov, təlim-tərbiyə işləri üzrə direktor müavini Dilbər Yəhyayeva, məktəbin müəllimləri Gülzar Asvarova, Kifayət Aslanova Qasımxan qalası, Lahıc məscidi yaxınlığında aşkar olunan skeletlər, Sümüklü dərə, Qalagah alban kilsəsi, Mücü və Uzboylar qəbirləri ilə bağlı fikirlərini bölüşüb, klubun yaradılmasının məktəbin fəaliyyətində mühüm hadisə olduğunu qeyd ediblər.

Azərbaycan Xalq Cümhuriyyəti - 100

# Cümhuriyyət qurucularının təhsil siyasəti



**Nüşabə EYVAZOVA,**
*Bakı şəhər 195 nömrəli tam orta məktəbin tarix müəllimi*

## 1918-1919-cu tədris ilində Gəncə gimnaziyasında cəmi 4 azərbaycanlı qız oxuyurdusa, 1919-1920-ci tədris ilində onların sayı 296 nəfərə çatmışdı

1917-ci ilin fevralında Rusiyada Romanovlar mütləqiyyəti devrildi. Ölkədə demokratik respublika tipli dövlət forması yaratmaq üçün Müəssislər Məclisinə seçkilər keçirilməsi qərara alındı. Monarxiya rejimi aradan qaldırıldıqdan sonra hakimiyyətə gələn Müvəqqəti hökumət Cənubi Qafqazın idarəçiliyi üzrə Xüsusi Komitə yaratdı. Lakin Müvəqqəti hökumət uzun müddət hakimiyyətdə qala bilmədi. 1917-ci ilin oktyabrındakı hakimiyyət çevrilişi nəticəsində Cənubi Qafqazdan Rusiyanın Müəssislər Məclisinə seçilən deputatlar Petroqrada və Moskvaya gedə bilmədilər. Bolşeviklər Müəssislər Məclisini buraxdıqdan sonra, onlar 1918-ci il fevralın 23-də Tiflisdə Cənubi Qafqazın ali hakimiyyət orqanı olan Zaqafqaziya Seymini yaratdılar. Lakin istər daxili, istərsə də xarici siyasət sahəsində kəskin milli mənafe ziddiyyətlərinin olması Zaqafqaziya Seyminin zəruri addımlar atmasına imkan vermədi. Nəticədə, gürcü nümayəndələri Seymdən çıxdılar və 1918-ci il mayın 26-da Gürcüstanın müstəqilliyini elan etdilər (bax: Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. I cild. Bakı, 2004, səh.,28). Zaqafqaziya Seymi dağıldıqdan bir gün sonra, mayın 27-də Azərbaycanın istiqlaliyyətini elan etmək və ilk Azərbaycan hökuməti yaratmaq üçün Seymin bütün müsəlman nümayəndələri Tiflisdə toplandı. Hərtərəfli müzakirədən sonra onlar belə ağır bir zamanda Azərbaycanın idarə olunmasını öz üzərlərinə götürmək qərarına gələrək özlərini Azərbaycanın Milli Şurası elan etdilər. Bu iclasda Milli Şuranın rəyasət heyəti seçildi. Rəyasət heyətinə M.Hacınski, N.Yusifbəyov, X.Xasməmmədov, M.Y.Cəfərov, X.Məlik Aslanov, C.Hacınski, Ə.Şeyxülislamov, X.Sultanov daxil oldular. Gizli səsvermə yolu ilə M.Ə.Rəsulzadə Azərbaycan Milli Şurasının sədri seçildi. (bax: Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920) Parlament (stenoqrafik hesabatlar). I cild, səh.4).

### İlk Xalq Maarif Nazirliyi

Azərbaycan Xalq Cümhuriyyəti yarandığı gündən xalq maarifinin inkişafına xüsusi diqqət yetirirdi. Çünki çar hakimiyyəti Rusiyanın müstəmləkə əsarəti altında olan xalqlarının milli-siyasi mənlik şüurunun oyanmasına hər vasitə ilə mane olmuşdu. Hökumət, bir tərəfdən, xalq təhsilinin inkişafı ilə razılaşmağa məcbur olurdu. Çünki dünyada elm və texnikanın sürətlə inkişafı Rusiyada da maarifin və xalq təhsilinin tamamilə yenidən qurulmasını tələb edirdi. Digər tərəfdən, çarizm xalqın oyanmaqda olan şüurunun qarşısını almaq üçün xalq maarifi işini məhdud çərçivədə saxlamaq istəyirdi. Çar Rusiyasında xalq maarifi və onun əsas daşıyıcısı olan müəllimlər hökumət tərəfindən hər cür həqarət və təqiblərə məruz qalırdı. Ucqarlarda, o cümlədən Şimali Azərbaycanda, vəziyyət daha dözülməz idi. Burada zorla ruslaşdırma siyasət yeridilir, təhsil əsasən, rus dilində aparılır, milli dil və mədəniyyətin inkişafına hər cür əngəllər törədilirdi. 1918-ci il mayın 28-də Azərbaycanın müstəqilliyi elan edildiyi gün Fətəli xan Xoyskinin sədrliyi ilə yaradılmış birinci hökumət kabinetində Xalq Maarif Nazirliyi də təsis olundu. Nəsib bəy Yusifbəylinin başçılıq etdiyi nazirlik öz fəaliyyətinə Azərbaycan xalq maarifinin vəziyyətinin və bu sahədə həyata keçiriləcək vəzifələrin müəyyənləşdirilməsi ilə başladı.

Azərbaycan Xalq Cümhuriyyəti hökuməti Tiflisdən Gəncəyə köçdükdən sonra - iyunun 30-da hökumətin qərarı ilə XMN-nə nazirliyin ştat cədvəlini müəyyənləşdirmək və Əsasnaməsini hazırlayıb hökumətə təqdim etmək tapşırıldı. 1918-ci il avqustun 2-də xalq maarif naziri tərəfindən hazırlanmış Əsasnamə baxılmaq və təsdiq üçün hökumətə təqdim olundu. Əsasnaməyə görə, XMN-nin ştatı nazirdən, nazir müavinindən, naziryanı şuradan, məktəbləri idarə etmək üçün ali və orta təhsil, ixtisas təhsili sahələri üzrə üç şöbədən ibarət təsdiq olundu (bax: Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. II cild. Bakı, 2005, səh.11).

### Dövlət dili və milliləşdirmə

Azərbaycan Xalq Cümhuriyyətinin təhsil sahəsində həyata keçirdiyi ilk tədbirlərdən biri də hökumətin 1918-ci il 27 iyun tarixli qərarı ilə Azərbaycan (türk) dilinin dövlət dili elan edilməsi idi. Azərbaycan hökuməti ilk günlərdən başlayaraq, milli kadrların hazırlanması, bu sahədə təhsilin tamamilə yenidən qurulmasına xüsusi əhəmiyyət verirdi. Nazirliyin təhsil sahəsində həyata keçirdiyi ilk və ən mühüm tədbirlərdən biri də məktəblərin milliləşdirilməsi oldu.

Azərbaycan Cümhuriyyəti hökumətinin 1918-ci il 28 avqust tarixli qərarına əsasən, bütün ibtidai tədris müəssisələrində təhsil şagirdlərin ana dilində aparılmalı, dövlət dili olan Azərbaycan dilinin tədrisi isə məcburi surətdə həyata keçirilməli, ali, ibtidai və orta tədris müəssisələrində isə dərslər dövlət dilində aparılmalı idi. Azərbaycan dilini bilməyən şagirdlər üçün 3-cü və 4-cü siniflərdə Azərbaycan dili şöbələri açılmalı və burada Azərbaycan dili elə intensiv tədris olunmalı idi ki, iki ildən sonra həmin şagirdlər artıq bu dildə təhsillərini davam etdirə bilsinlər (bax: Rəhman Salmanlı. AXC-nin dil siyasəti. "Azərbaycan" qəzeti, 2016, 27 may).

### Maarif nazirinin qubernatorlara məktubu

Xalq maarif naziri N.Yusifbəyli 1918-ci il dekabrın 31-də Azərbaycan qubernatorlarına göndərdiyi məktubda göstərirdi ki, Azərbaycan Xalq Cümhuriyyətində maarif sahəsində qarşıda çox böyük və çətin vəzifələr durur. Nazirlik yeni məktəblər, müəllim kursları açmaqla, təhsil sahəsində ölkəni mümkün qədər qısa müddətdə lazımi səviyyəyə qaldırmaq üçün bütün qüvvələri səfərbərliyə aldı. Məktubda qeyd edilirdi ki, indiki zamanda yalnız yüksək maarifə malik olan xalq tərəqqi edə bilər.

Cümhuriyyət Hökumətinin həyata keçirdiyi tədbirlər nəticəsində artıq 1919-cu ilin əvvəllərində Azərbaycanda dövlət hesabına 23 orta ixtisas təhsili məktəbi və 637 ibtidai məktəb fəaliyyət göstərirdi. 1918-ci ildə Zaqafqaziya dairəsində 25 ibtidai məktəbin açılması üçün nazirlik 199 min manat pul ayırmışdı.

Qadınların təhsilinə xüsusi diqqət yetirilirdi. Orta təhsil müəssisələrində azərbaycanlı qızların sayı artırdı. Məsələn, əgər 1918-1919-cu tədris ilində Gəncə gimnaziyasında cəmisi 4 azərbaycanlı qız oxuyurdusa, 1919-1920-ci tədris ilində onların sayı 296 nəfərə çatmışdır (bax: Azərbaycan tarixi. Yeddi cildlik. V cild. Bakı, 2008, səh., 527).

### Pedaqoji kursların 150 müdavimi

Müəllimlər seminariyaları istisna olmaqla, 1919-1920-ci tədris ilində Azərbaycanın orta məktəblərində 9611 şagird təhsil alırdı ki, onların da 3115 nəfəri azərbaycanlı idi.

Xalq təhsilini milli zəmin üzərində yenidən qurmaq üçün ixtisaslı müəllim kadrlarına və dərs vəsaitlərinə böyük ehtiyac var idi. O dövrdə Azərbaycanda mövcud müəllim kadrları və dərs vəsaiti heç də kifayət qədər deyildi. Vəziyyətdən başlıca çıxış yolu Türkiyədən müəllim kadrları dəvət etmək və dərs vəsaitləri gətirmək, habelə qısamüddətli kurslarda Azərbaycan dilini bilən savadlı şəxslərdən müəllim kadrları hazırlamaq idi. Müəllimlərə olan ehtiyacı ödəmək üçün 1918-ci ildə Gəncə, Şəki və Zaqatalada qısamüddətli pedaqoji kurslar təşkil edildi və bu kurslarda 150 nəfər oxumağa başladı. Lakin Gəncədə fəaliyyət göstərən müəllim seminariyası kadrlara olan ehtiyacı ödəyə bilmirdi. Odur ki, Maarif Nazirliyi Qori Müəllimlər Seminariyasının Azərbaycan şöbəsinin müstəqil seminariya kimi Qazaxa köçürülməsi haqqında qərar qəbul etdilər. (bax: Elman Mirzəyev, Səma Babayeva. Azərbaycan Xalq Cümhuriyyəti və təhsil. "Xalq qəzeti", 2018-ci il, 13 fevral).

Müəllim seminariyasından başqa, xalq maarif sistemi üçün kadrlar hazırlayan müəssisələrdən biri də ali ibtidai məktəblər olmalı idi. Bu məqsədlə respublikanın Maarif Nazirliyi 1918-ci ildə bir sıra işlər görmüşdü: Göyçayda məktəb açılmış, Ağdamda, Nuxa (Şəki) qəzasının Qutqaşen kəndində belə məktəblərin açılması haqqında qərar qəbul edilmişdi.

### AXC hökuməti Türkiyədən dərsliklərin alınmasına 1 milyon manat ayırmışdı

XMN məktəbləri dərs vəsaitləri ilə təmin etmək məqsədilə xüsusi komissiya yaratmışdı. Həmin komissiyanın fəaliyyətinə o dövrün görkəmli pedaqoqları Hüseyn Cavid, Mahmud bəy Mahmudbəyov, Abdulla Şaiq, Cəmo Cəbrayılbəyli, Səməd bəy Acalov, Fərhad Ağazadə, Abdulla bəy Əfəndizadə və b. cəlb edilmişdilər. 1919-cu ildə "Türk əlifbası", "Təzə elmi-hesab", "İkinci il", "Yeni məktəb", "Ədəbiyyat dərsləri", "Müntəxəbat", "Türk çələngi", "Tarixi-təbii", "Rəhbər cəbr" dərslikləri nəşr olundu.

1919-cu il sentyabrın 18-də Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin qərarı ilə xalq məktəbləri üçün Türkiyədən dərs kitabları almaq məqsədilə Xalq Maarif Nazirliyinə bir milyon manat vəsait ayrılmışdı.

### BDU - açılması nəzərdə tutulan 3 ali təhsil müəssisəsindən biri

Azərbaycan Cümhuriyyəti Hökumətinin və Xalq Maarif Nazirliyinin təhsil sahəsində qarşısında duran ən ümdə vəzifələrdən biri də ölkədə ali təhsilin təşkili və ali təhsilli kadrların hazırlanması idi. Cümhuriyyət Hökumətinin fəaliyyət göstərdiyi qısa müddətdə Azərbaycanda üç ali təhsil ocağının - Bakı Dövlət Universitetinin, Əkinçilik İnstitutunun və Dövlət Konservatoriyasının təsis edilməsi barədə məsələ qaldırılmışdı. Onlardan yalnız birini - Bakı Dövlət Universitetinin açılmasını reallaşdırmaq mümkün oldu. Azərbaycan Xalq Cümhuriyyəti Parlamenti 1919-cu il sentyabrın 1-də "Bakı Dövlət Universitetinin təsisi haqqında" qanun qəbul etdi. 1919-cu il noyabrın 15-də Bakı Dövlət Universitetinin auditoriyalarında ilk mühazirələr oxundu.

Parlamentin 1919-cu il 1 sentyabr tarixli qərarı əsasında XMN-nin xətti ilə 100 nəfər azərbaycanlı gənc dövlət hesabına xarici ölkələrə - İngiltərə, İtaliya, Fransa və Türkiyəyə yola salınmışdı. Bir neçə tələbənin Rusiyanın təhsil müəssisələrinə göndərilməsi də qərara alınmışdı. Lakin xarici hərbi müdaxilə və vətəndaş müharibəsi getdiyinə görə, bu tədbir baş tutmamışdı. Xarici ölkələrə gedən cavanlar ali təhsil alıb Vətənə qayıtdıqdan sonra 4 il müddətində Azərbaycan hökumətinin təyinatı ilə işləməli idilər. Dövlət hesabına xaricə ali təhsil almağa göndərilən tələbələrdən başqa, Parlament komissiyası tərəfindən 31 nəfər əlavə abituriyent də seçilmişdi ki, onların da öz hesabına, yaxud mesenatların maliyyə dəstəyi ilə Qərbi Avropa ölkələrinin ali məktəblərində təhsil alması nəzərdə tutulmuşdu.

Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin xalq maarifi sahəsində həyata keçirdiyi mühüm tədbirlərdən biri də ibtidai təhsil müəssisələri şəbəkəsinin genişləndirilməsi idi. Təkcə 1919-cu ildə Azərbaycanda dövlət hesabına 15 ali ibtidai məktəb fəaliyyət göstərirdi. Cümhuriyyət hökuməti eyni zamanda yaşlıların savadlandırılması qayğısına da qalırdı. Bu məqsədlə 1919-cu il sentyabrın 15-dən Bakı, Gəncə, Şuşa, Nuxa (Şəki), Zaqatala və Qazaxda yaşlılar üçün Azərbaycan dilini öyrədən xüsusi kurslar, 1919-cu ilin noyabrından isə Bakıda azərbaycanlı fəhlələr üçün texniki axşam kursları açılmışdı. Bu kurslarda 200 nəfərə yaxın azərbaycanlı fəhlə peşə təhsilini artırırdı. Xalq Maarif Nazirliyi bu kursların işinə yaxından kömək göstərirdi.

Azərbaycan Cümhuriyyəti Xalq Maarif Nazirliyi ölkədə maarifin inkişafi üçün geniş tədbirlər planı hazırlamış, həmin plan Azərbaycan hökuməti tərəfindən bəyənilmiş və onun həyata keçirilməsinə razılıq verilmişdi. Lakin aprel işğalı (1920) bu planların gerçəkləşdirilməsini yarımçıq qoydu. Azərbaycan Xalq Cümhuriyyətinin cəmi 23 aylıq fəaliyyəti dövründə təhsil sahəsində həyata keçirdiyi tədbirlər sonralar Azərbaycanda xalq maarifinin təşkili və inkişafına mühüm kömək göstərdi.

1998-ci il müstəqilliyimizin bərpasından sonra AXC-nin təhsil sahəsindəki ideyalarının ölkəmizdə ardıcıl gerçəkləşdirilməsinə başlandı.

Təhsil sahəsində ümummilli lider Heydər Əliyevin və Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən islahatlar nəticəsində hazırda Azərbaycan təhsili xeyli inkişaf etmişdir. Ulu öndər Heydər Əliyev Azərbaycan Respublikasının təhsil sahəsində islahatlar üzrə Dövlət Komissiyasının iclasındakı nitqində bu məsələni xüsusi açıqlamışdır: "İndi təhsil sistemində islahatların əsas məqsədi ondan ibarətdir ki, Azərbaycanın təhsil sistemi dünya təhsil sisteminin standartlarına uyğunlaşsın. Təbii ki, belə bir şəraitdə Azərbaycan özünün təhsil nailiyyətləri ilə inkişaf etmiş ölkələrin səviyyəsinə çatmaqla daha böyük uğurların sahibi ola bilər".

# Yüz dərsə bərabər dərs

## Xırdalan məktəbliləri hərbi hissədə

**Hüseyn ŞAHBƏNDƏYEV,**
*Xırdalan şəhər 9 nömrəli tam orta məktəbin tərbiyə işləri üzrə direktor müavini, Əməkdar müəllim,*

**Kəmalə FƏRƏCOVA,**
*Xırdalan şəhər 9 nömrəli tam orta məktəbin ibtidai sinif müəllimi*



Dərs ilinin son ayı ölkəmizin tarixində çox əlamətdar bayramlarla - Milli Qurtuluş Günü və Azərbaycan Respublikası Silahlı Qüvvələri Günü ilə yadda qaldı. Həmin günlərə bütün məktəblərdə təntənə ilə qeyd edilən "Son zəng" tədbirini də əlavə etsək, iyun ayında sinifdənxaric və məktəbdənkənar tədbirlərə hazırlaşmağın özəl çətinliklərini təsəvvür etməyə ehtiyac qalmır. Lakin işgüzarlıq olan yerdə, təbii ki, yalnız uğurlardan söhbət gedə bilər. Xırdalan şəhər 9 nömrəli tam orta məktəbin 2k sinif şagirdlərinin "N" saylı hərbi hissənin əsgər və zabitləri ilə görüşündən sonra yaşadığımız ilk təəssürat məhz qeyd etdiklərimiz kimi oldu.

Görüş Xırdalan şəhər 9 nömrəli tam orta məktəbin 2k sinif şagirdlərinin və ibtidai sinif müəllimi Kəmalə Fərəcovanın təşkilatçılığı, valideynlərin yaxından iştirakı ilə təşkil olunmuşdu. Tədbirə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın: "Müəllim şagirdlərinə yalnız təhsil verməklə kifayətlənməməlidir. Müəllim ölkəmizin gələcəyi üçün sağlam düşüncəli, cəsarətli, vətəni sevən və lazım gələrsə, canını belə fəda edəcək vətənpərvərlər yetirməlidir" tövsiyəsi deviz seçilmiş, həmin tövsiyələrə uyğun olaraq hazırlıq işləri aparılmışdı. Görüşün ssenarisi məktəbdə müzakirə olunmuş, məktəbin direktoru H.İbrahimova ilə razılaşdırılmışdı.

Tədbirə razılıq alınmasında Abşeron Rayon Təhsil Şöbəsinin rəhbərliyi, Abşeron Rayon Müharibə Veteranları İctimai Birliyi tərəfindən yaxından kömək göstərilmiş, məktəbin gənclərin çağırışaqədərki hazırlığı rəhbəri, ehtiyatda olan polkovnik-leytenant Elmar Hüseynovun və Azərbaycan Respublikası Şəhid, Əlil Veteranlar İctimai Birliyinin rəhbəri, Qarabağ qazisi Rövşən Quliyevin müraciətlərinə müdafiə naziri cənab Zakir Həsənov tərəfindən razılıq verilmişdi.

"N" saylı hərbi hissənin giriş qapısından hərbi şəhərciyə daxil olanda qəlbimizdə Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevə yönəlmiş minnətdarlığımızı sözlə ifadə etmək mümkün deyildi: buradakı səliqə-sahman, əsgərlər və hərbi qulluqçular üçün yaradılmış ideal şərait, onların təlim meydançaları, hərbi texnika, əsgər yataqxanası, klub, məişət otaqları, yeməkxana, bir sözlə, güclü ordu üçün zəruri olan hər şey qəlbimizdə qürur hissi oyadır, Azərbaycan Ordusunun, həqiqətən, güclü bir ordu kimi formalaşmasından xəbər verirdi. Hərbi hissədə bizi qarşılayan polkovnik-leytenant və digər zabitlər gələn ziyarətçilərə qısa məlumat verib, onları klubun geniş zalına dəvət etdilər.

Hərbi geyimli şagirdlər əsgərlərlə birlikdə Azərbaycan himnini ifa etdilər. Rəsmi hissədə hərbi hissənin komandiri, Qarabağ müharibəsinin veteranları, Abşeron RTŞ-ın müdiri N.Məmmədovanın, Xırdalan şəhər 9 nömrəli məktəin gənclərin çağırışaqədərki hazırlığı rəhbəri E.Hüseynovun, Əməkdar müəllim H.Şahbəndəyevin, 2k sinfinin müəllimi K.Fərəcovanın çıxışlarından sonra şagirdlərin hazırladıqları geniş kompozisiya təqdim olundu. Vətən sevgisi, işğal olunmuş torpaqlarımızdan düşməni qovmaq əzmi, Azərbaycan əsgərinin tərənnümü, əsgər və zabitlərimizin qəhrəmanlıq ruhunu ifadə edən şeirlər, mahnılar əsgərlərin də coşqunluğuna gətirib çıxardı. Musiqi müəllimi Sevincin təşkil etdiyi şagird xorunun ifası, müəllimin ifa etdiyi vətənpərvər və ritmik mahnılar əsgər və zabitlərin alqışları ilə qarşılandı. İkincilərdən: "Mən Mübariz qardaşımın yarımçıq qalmış işlərini axıra çatdıracağam, ana",-deyən Salehin, "Azərbaycan əsgəri, dağla düşməni",-deyən Zəhranın, "Sən bizim şərəfimizsən! Sən bizlərə örnəksən, Mübariz!",-deyən Mələyin və digər şagirdlərimizin çıxışlarını zaldakılar sürəkli alqışlarla qarşıladılar. 9-cu sinif şagirdi Eminin oxuduğu lirik mahnılar gözəl ovqat yaratdı. Şagirdlər və qonaqlar əsgərlərlə birgə rəqs etdilər.

Əsgərlər üçün yaradılmış yaşayış və təlimdən sonrakı istirahət və idman yerləri ilə tanışlıq zamanı da qələbəyə inamımız bir daha artdı, hərbi hissədən yüksək əhvali-ruhiyyə ilə ayrıldıq. Qəlbimizdə görüşün təşkilində zəhməti olan bütün insanlara minnətdarlıq duyğusi, bir də Qarabağın düşmənlərimizdən azad olunacağına dərin inam baş qaldırdı. Zənnimizcə, həmin gün şagirdlərin canlı təəssüratları yüz dərsə bərabər bir dərs oldu.

Sonda məktəblilər gətirdikləri kitabları hərbi hissəyə hədiyyə etdilər.

# İngilis dilini öyrənənlər üçün dərs nümunələri

BRITISH COUNCIL

LearnEnglish

# For better or worse?

by A. J. Dalton (amended by Jon Porter)

## Isn't marriage meant to be for life? Why then do so many marriages in the UK now end in divorce?




A hefty 42 per cent of marriages in the UK end in divorce, the highest rate in Europe. What is happening in the UK to cause such a phenomenon? Many consider the family to be the basic building block of society. If marriages and families are falling apart, is UK society also falling apart? Is the divorce rate a symptom of some sort of social crisis? Is the UK's cultural identity disintegrating?

It's quite difficult these days to say what the UK's cultural identity is. We're all familiar with British traditions and customs, but they don't really seem to be a big part of modern life in the UK. A popular idea from decades ago was that British men are gentlemen who wear bowler hats, but of course that is no longer true at all. It is also wrong to think that we all live in quiet, sleepy villages and play cricket. We don't all drink tea with milk. The UK of today is one of the most multicultural countries on earth. There are exotic sights and sounds on the street corners of every British city. British cuisine is now one of the most diverse around. Everyone speaks with a different accent. The strange and the bizarre are quite common in the UK.

Is such diversity a good thing? Well, it makes the UK a very exciting place to live. There are new ideas everywhere. All the senses are stimulated. There is great freedom to be who you want to be, and most people will not criticise you for who you are. Yet such freedom seems to come at a cost. It's not all happy families. There has been a significant number of race riots in both the south and north of England over the last 50 years of British history. Some British people regard ethnic minorities as coming to the UK to steal jobs. When the economy does badly, this feeling increases as unemployment rates rise. Strongly nationalistic political parties, such as the UK Independence Party (UKIP) and British National Party (BNP), have enjoyed more popularity in recent years.

So, it could be argued that the breakdown of marriages in the UK is in some part because of the pressures put upon families by wider problems in British society. Many people become stressed and unhappy when they lack financial security, and that can then make their home life or family life stressed and unhappy as well.

Another possible reason for the high divorce rate might be that marriage no longer has the same value or meaning for British people as it once did. Church attendance in the UK has been falling for the last 50 years, suggesting fewer people consider marriage a holy institution. Since 1991, there has been a drop of 50 per cent in people getting married in church rather than a register office. Bizarrely, Christian missionaries now come to the UK, whereas 800 years ago, the UK was sending Christian missionaries out around the world.

Then there is the financial side to getting married. In the past, married couples paid lower government taxes than single people. That tax incentive has now disappeared. In addition, the cost of a 'white wedding' in the UK, once every girl's dream, is now so high (a minimum of £10,000) that increasingly few people can afford it.

What does it all mean? Will marriage disappear completely in the UK one day? Probably not. The reality is that the institution of marriage is changing with British society, so it has a good chance of survival. Since the introduction of 'civil partnerships' in the UK on 5 December 2005, thousands of same-sex marriages have taken place every year. The dissolution rate (effectively, the divorce rate) is less than one per cent. The UK has made a lot of progress in the area of gay rights since homosexual acts were decriminalised in 1967. It's probably just as well, since otherwise fewer people would be happily married in the UK.

However … that figure at the top of the page – 42 per cent UK divorce rate, the highest in Europe – is still actually the lowest rate in the *UK* for forty years! Despite everything, the cultural acceptance of couples living together before getting married may actually be strengthening marriage in the UK!

### Activity 1: Before you read

What are your personal views and attitudes? Do you agree (A) or disagree (D) with these statements?

1 Gay marriage is fair and right.
2 Marriage is mainly a religious ceremony.
3 Everyone should want to get married in their lives.
4 People don't always marry for love.

Now look back at the article. What answers do you think British people would give to those same questions?

### Activity 2: Vocabulary

All the words below are from the article. Match the ones with similar meanings. One answer is given.

1 **diverse (c)**
2 dissolution
3 gay
4 falling apart
5 bizarre
6 in the past
7 because
8 less

a disintegrating
b once
c **multicultural (1)**
d homosexual
e since
f strange
g lower
h divorce

### Activity 3: Trends

Based on the article, choose a suitable word from the list to fill each gap in each sentence. There are more words in the list than you need.

dropped highest up decrease risen down decreased

1 The UK divorce rate is the ................. in Europe.
2 There has been a .................. in the number of British people attending church over the last 50 years.
3 The costs of a white wedding go .................. every year.
4 Since 1991, the number of people getting married in church has ..................

# Fun corner

Choose the correct answer for each question.

1 What do we call the party after a wedding ceremony?
  a the congregation
  b the reception
  c a funeral
2 Which one of these people won't be found in a church?
  a registrar
  b a priest
  c a bride
3 Which of these are not said during a civil ceremony?
  a 'I do.'
  b the vows
  c a blessing

# Word(s) of the day

If someone plays at **'happy families'**, then they pretend that everything is okay and that they have the perfect, 'normal' family when this is probably not the case. If something is described as not being 'all happy families', then the situation is not good.




**Answers**

Activity 2
1 c
2 h
3 d
4 a
5 f
6 b
7 e
8 g

Activity 3
1 highest
2 decline
3 up
4 dropped

Fun corner
1 b
2 a
3 c

Want to find more learning activities?
Visit www.britishcouncil.org/learnenglish

Send your feedback to learnenglishprint@britishcouncil.org

© British Council 2016

# ADPU-nun nümayəndə heyəti LDU-da olub

## Təhsilin inkişaf istiqamətləri, prioritetləri müzakirə edilib

Şakir CƏFƏROV

Lənkəran Dövlət Universiteti (LDU) ilə qarşılıqlı əməkdaşlığa dair bağlanılmış müqavilənin şərtlərinə əsasən Azərbaycan Dövlət Pedaqoji Universitetinin (ADPU) nümayəndə heyəti bu ali təhsil müəssisəsində olub. ADPU-nun rektoru, professor Cəfər Cəfərovun rəhbərlik etdiyi nümayəndə heyəti əvvəlcə LDU-nun rektoru vəzifəsini icra edən, professor Natiq İbrahimovla görüşüb. Professor Natiq İbrahimov qonaqlara universitetin yaranma tarixi, əldə etdiyi nailiyyətlər, son illər təhsilin inkişafı istiqamətində qazandığı uğurlar, beynəlxalq əlaqələri barədə ətraflı məlumat verib, nümayəndə heyətini LDU-nun yeni istifadəyə verilmiş turizm təcrübə bazası, yardımçı təsərrüfatı, sitrus və çay plantasiyaları, tədris korpusları, laboratoriyaları, fənn kabinetləri, tyutor xidməti ilə tanış edib.

Tanışlıqdan sonra söhbət "dəyirmi masa" ətrafında davam etdirilib. Söhbətdə ADPU-nun nümayəndə heyətinin üzvləri - rektor Cəfər Cəfərov, prorektorlar Asəf Zamanov, Fikrət Rzayev, universitetin Cəlilabad filialının direktoru, dosent Xudayar Sultanlı, LDU-nün professor-müəllim heyəti iştirak edib. İşgüzar və səmimi şəraitdə keçən söhbət zamanı ölkədə, o cümlədən adıçəkilən universitetlərdə təhsilin inkişafı istiqamətləri, prioritetləri geniş müzakirə edilib, regionda orta təhsil sisteminin inkişafı ilə bağlı birgə fəaliyyətin vacibliyi vurğulanıb, humanist pedaqogika ilə bağlı birgə regional tədbirin keçirilməsi qərara alınıb.

Eyni zamanda elmi nəşrlərin birgə buraxılışı, birgə elmi layihələrin tədqiqi, doktorant-magistrlərin birgə hazırlanması, tələbə mobilliyi, müxtəlif ixtisaslar üzrə "açıq dərs"lərin, mühazirələrin keçirilməsi, tələbə və müəllim ictimai təşkilatlarının əməkdaşlığı, ADPU-nun Cəlilabad filialı ilə əməkdaşlıq, dərslik, elmi jurnalların mübadiləsi ətrafında geniş diskussiya aparılıb, təklif və rəylər dinlənilib.

"Dəyirmi masa" arxasında diskussiya-söhbətdən sonra ADPU-nun nümayəndə heyətinin üzvləri LDU-nun professor-müəllim heyəti ilə müxtəlif bölmələrdə humanitar və təbiyyat elmlərinin inkişafı, xarici dillərin tədrisi ilə bağlı elmi söhbət aparıblar.

Sonda belə görüşlərin növbəti tədris ilində davamlı və geniş tərkibdə keçirilməsi qərara alınıb.




## "AZƏRBAYCAN MÜƏLLİMİ"

Qəzet 1934-cü ildən çıxır

**Baş redaktor**
Nurəddin Heydərov 538-21-66

**Mühasibatlıq** 539-67-74

**Reklam və elanlar** 539-20-77 (tel./faks)

**Ünvan:** AZ-1100, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə 23 M, Mətbuat Evi, 5-ci mərtəbə

Qəzet "Azərbaycan müəllimi"nin kompüter mərkəzində yığılır və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet hər həftənin cümə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı 5 saylı "Mətbuat şöbəsi"
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

"Azərbaycan müəllimi" qəzeti redaksiyası
Hesab № AZ80 IBAZ38060019443164986350
VÖEN: 1300397831

**Lisenziya** № 022327, **İndeks:** 0003, **Tiraj** 4478, **Sifariş** 2012

**Məsul növbətçi:** Ş.Cəfərov


# ADNSU-nun 10 magistrantı "Azərişıq" ASC-də dissertasiya müdafiə edib

## Gənc kadrların səhmdar cəmiyyətdə işlə təmin olunmaları nəzərdə tutulur

İyunun 29-da Təhsil Nazirliyinin Müştərək Magistr Hazırlığı layihəsi çərçivəsində "Azərişıq" ASC-nin Tədris Mərkəzində tədbir keçirilib.

Layihənin həyata keçirilməsində əsas məqsəd elektroenergetika üzrə ali təhsil müəssisələrinin magistr pillələrində təhsil alan tələbələrin dissertasiya işlərinin hazırlanmasında "Azərişıq" ASC-nin maddi-texniki bazasından, müasir laboratoriyalarından yararlanmasını təmin etmək, eyni zamanda paylayıcı şəbəkələrin elektrik enerjisinin keyfiyyət göstəricilərinin normallaşdırılması, o cümlədən texniki və texnoloji itkilərin minimallaşdırılması, tələb olunan səmərəli elektrik təchizatı sxeminin formalaşdırılması, xüsusilə elektroenergetika sahəsində gələcək çağırışlara və real inkişafa cavab verəcək elmi potensialın istehsalata inteqrasiyasına nail olmaqdır.

Müştərək Magistr Hazırlığı layihəsinin əsas qayəsini təşkil edən detallara gəldikdə isə vurğulanıb ki, magistrlərə təqdim edilən dissertasiya mövzuları elektroenergetikanın, xüsusilə ölkənin paylayıcı elektrik şəbəkələrinin aktual problemlərini və sahənin inkişafını əhatə etməklə, "Azərişıq" ASC tərəfindən müəyyənləşdirilir. Yəni magistrlərə universitet tərəfindən elmi rəhbərlə yanaşı, "Azərişıq" ASC-nin təcrübəli mühəndisləri ikinci dissertasiya rəhbəri (istehsalat rəhbəri) kimi təyin olunur. Paralel olaraq layihə qaydalarına uyğun olaraq istehsalat rəhbərləri magistrlərə lazımi materiallar, dərs vəsaitləri, proqram təminatları və s. ilə təchiz edilməklə, mənbələr göstərilməklə istiqamətləndirir. Eyni zamanda istehsalat rəhbərləri magistrlərə diplom işlərinin mövzusundan asılı olaraq Bakı və regional şəbəkələrin elektrik qurğuları (yarımstansiyalar, EVX-lər, Dispetçer İdarətmə mərkəzləri və s.) ilə tanışlığını təmin edir, üstəlik ayda 3 dəfədən az olmayaraq onlarla görüş keçirilərək, yaranmış sualları cavablandırır. Bu da, öz növbəsində, gənc kadrların formalaşmasında əhəmiyyətli rol oynayır.

Bu cür layihənin artıq 2017-2018-ci tədris ilində Təhsil Nazirliyi, "Azərişıq" ASC və ADNSU tərəfindən birgə həyata keçirildiyi qeyd olunub. Belə ki, ADNSU-nun "Elektroenergetika" kafedrası üzrə II kurs, 20 nəfər magistranta "Azərişıq" ASC tərəfindən dissertasiya işlərinin mövzuları təqdim olunub. Layihə çərçivəsində "Azərişıq" ASC tərəfindən istehsalatın gündəlik iş fəaliyyətində və perspektiv istiqamətlərində aktual olan dissertasiya mövzuları təqdim edilib və magistrantlara hərtərəfli dəstək göstərilib.

Tədbirdə ADNSU-nun 10 nəfər magistrantının dissertasiya işlərinin müdafiəsi baş tutub. Həmçinin, universiteti bitirən həmin gənc kadrların gələcəkdə "Azərişıq" ASC-də işlə təmin olunmalarının nəzərdə tutulduğu xüsusi qeyd olunub.

# UTECA Boğaziçi Universiteti ilə birgə layihəyə başlayır

Azərbaycan Texnologiya Universiteti (UTECA) tədrisin səviyyəsinin müasir standartlara uyğunlaşdırılması məqsədilə növbəti beynəlxalq əməkdaşlığa başlayır. UTECA bu dəfə Türkiyənin Boğaziçi Universiteti ilə birgə layihə üzərində işləyir. Məsələ ilə bağlı Boğaziçi Universitetinin Ömürböyu yaşam mərkəzinin nümayəndələri UTECA-da olublar. UTECA-nın rektoru, professor Akif Süleymanov qonaqlara universitetlə bağlı məlumat verərək burada qida, yüngül sənaye, logistika, metallurgiya və İKT üzrə müasir standartlara cavab verən kadrlar yetişdirildiyini, mütəxəssis hazırlığı məsələsində ölkənin iqtisadi siyasətinə uyğun addım atıldığını, gələcəkdə hərbi, tibbi, kosmik sahələr üzrə də mühəndis və texnoloqların yetişdirilməsinin planlaşdırıldığını deyib.

Layihənin detallarının müzakirəsi zamanı Boğaziçi Universitetinin nümayəndələri Söner Şahan və İşıl Keskin Şahan bildiriblər ki, bu əməkdaşlıq Azərbaycan universitetləri üçün ilk hesab edilir və reallaşdırılması üçün məhz UTECA-nın seçilməsi heç də təsadüfi deyil. Layihə çərçivəsində tələbə, müəllim və professor heyəti müxtəlif təlimlərə cəlb ediləcək. Bundan başqa, UTECA-da beynəlxalq akkreditasiyalı xüsusi mərkəz yaradılacaq. Mühəndislik, turizm və sair ixtisaslar üzrə beynəlxalq sertifikatları təkcə UTECA-nın tələbələri deyil, istənilən müvafiq ixtisaslı kadr da əldə edə biləcək. Müzakirələr nəticəsində layihənin həyata keçirilməsini sürətləndirmək üçün təzliklə işçi qrupun yaradılması barədə razılığa gəlinib.

# 30 ildən sonra görüşdülər



**Allahşükür KƏRİMOV,**
*məzun, Azərbaycan Jurnalistlər Birliyinin üzvü*

Görüşün birinci bölümündə qrup halında toplaşan məzunlar 5-10 nəfərlik masa arxasında canlı dialoqa girdilər. Ailə qayğılarından, şagird-müəllim münasibətlərindən, pedaqoji mövzuda fikir mübadiləsi etdilər.

Sonra öz doğma müəllimlərini xatırlayıb, dünyasını dəyişənlərə Ulu Tanrıdan rəhmət dilədilər.

Görüşdə məzunlar yaddaqalan xoş xatirələrindən söz açdılar. Onlar Azərbaycan Dövlət Pedaqoji Universitetinin auditoriyalarında səsi gələn doğma müəllimlərindən-Himalay Qasımov, Qəzənfər Kazımov, Nizami Xudiyev və Tərlan Novruzovla hər dəfə görüşlərindən məmnun olduqlarını bildirdilər.

Tədbirin axırında otuz il əvvəlki xatirələrin işığına toplaşan məzunlar bir-birlərinə "Gələn görüşlərədək", "Sağlıq olsa görüşərik" - deyib, "ömür karvanı"nın köç etdiyi müxtəlif ünvanlara yollandılar.


# Etibarsız sayılır

**Sumqayıt şəhər** 27 nömrəli tam orta məktəbi 2013-cü ildə bitirmiş Sətyarlı Dilrüba Turab qızına verilmiş A-224767 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 272 nömrəli tam orta məktəbi 2015-ci ildə bitirmiş Əliyev Justin Elman oğluna verilmiş A-426038 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Kompüter Kolleci** tərəfindən 2005-ci ildə Qurbanova Günay Əhməd qızına verilmiş BB-II-019281 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**V.İ.Lenin adına Azərbaycan Dövlət Pedaqoji İnstitutu** tərəfindən 1989-cu ildə Qurbanova Rübabə Abdulla qızına verilmiş PB-028009 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Universiteti** tərəfindən 2010-cu ildə Seyidzadə Xəyal Arzu oğluna verilmiş B-195231 nömrəli bakalavr diplomu və əlavəsi itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 154 nömrəli tam orta məktəbi 2004-cü ildə bitirmiş Tarikuliyeva Səbinə Kamaldinovnaya verilmiş B-000923 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Müəllimlər İnstitutu Sumqayıt filialı** tərəfindən 2013-cü ildə Məmmədova Gülnar İzzət qızına verilmiş B-261544 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Sənaye Universiteti** tərəfindən 1999-cu ildə Səfərova Səbinə Ağarəhim qızına verilmiş A-043338 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 48 nömrəli tam orta məktəbi 2007-ci ildə bitirmiş Vəkilov Elxan Zaur oğluna verilmiş B-383866 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Universiteti** tərəfindən 2009-cu ildə Həsənova Aynur Hüseyn qızına verilmiş B-162293 nömrəli bakalavr diplomuna əlavə itdiyi üçün etibarsız sayılır.

**Naxçıvan Musiqi Kolleci** tərəfindən 2005-ci ildə Qurbanova Günel Azər qızına verilmiş BB-II-018760 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Mingəçevir şəhər** 1 nömrəli tam orta məktəbi 1980-ci ildə bitirmiş Məmmədov Elman Telman oğluna verilmiş AK-479645 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 116 nömrəli tam orta məktəbi 1980-ci ildə bitirmiş Abbasov Rasim Məzahim oğluna verilmiş AИ-276060 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 194 nömrəli tam orta məktəbin IX sinfini 2001-ci ildə bitirmiş Yusubov Elxan Oruc oğluna verimiş B-400789 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Qazax rayon** Xanlıqlar kənd tam orta məktəbini 2000-ci ildə bitirmiş Məmmədova Gülnarə Bəhruz qızına verilmiş A-410787 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Şabran rayon** Ağalıq kənd tam orta məktəbinin IX sinfini 1995-ci ildə bitirmiş Məmmədova Mehriban Cavanşir qızına verilmiş 23 nömrəli şəhadətnamə əvəzi arayış itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 220 nömrəli tam orta məktəbin IX sinfini 2008-ci ildə bitirmiş Hüseynzadə Cavanşir Vahid oğluna verilmiş A-695486 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Lənkəran Dövlət Humanitar Kolleci** tərəfindən 2017-ci ildə Məmmədov Raməddin Nurəddin oğluna verilmiş AA-092178 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Şərur rayon** Püsyan kənd tam orta məktəbini 2005-ci ildə bitirmiş Həsənova Nailə Eldar qızına verilmiş A-157616 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Şərur rayon** Çəmənli kənd tam orta məktəbini 1994-cü ildə bitirmiş Əliyeva (Ələsgərova) Afaq Ələsgər qızına verilmiş A-735997 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Şəmkir rayonu** İrmaşlı kənd 2 nömrəli tam orta məktəbin VIII sinfini 1980-ci ildə bitirmiş Rüstəmova Aybəniz Qədim qızına verilmiş 142297 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 244 nömrəli tam orta məktəbi 2005-ci ildə bitirmiş Səfərov Yaqub Şakur oğluna verilmiş B-185378 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Cəlilabad rayon** Astanlı kənd tam orta məktəbini 2005-ci ildə bitirmiş Hüseynov Emin Təvəkgül oğluna verilmiş B-168023 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 178 nömrəli tam orta məktəbin VIII sinfini 1995-ci ildə bitirmiş Smolin Stanislav Vladimiroviçə verilmiş 438 nömrəli arayış itdiyi üçün etibarsız sayılır.

**Zaqatala rayon** Muxax kənd 1 nömrəli tam orta məktəbi 2004-cü ildə bitirmiş Nurayeva Gülnar Rəsul qızına verilmiş B-107369 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** 6 nömrəli tam orta məktəbin IX sinfini 1990-cı ildə bitirmiş Cəfərov Fərhad Əli oğluna verilmiş A-721135 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**İmişli şəhər** 4 nömrəli tam orta məktəbi 2009-cu ildə bitirmiş Əliyev Nadir Nizami oğluna verilmiş B-664090 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Tibb Universiteti** tərəfindən 2015-ci ildə Sadıqova Günay Tahir qızına verilmiş AT-001994 nömrəli diplom və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Şəmkir rayon** Zəyəm qəsəbə tam orta məktəbini 2005-ci ildə bitirmiş Məmmədova Leyla Həmzə qızına verilmiş B-178295 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Naxçıvan Müəllimlər İnstitutu** tərəfindən 2011-ci ildə Musayev Orxan Mərdan oğluna verilmiş B-206045 nömrəli bakalavr diplomuna əlavə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universiteti** tərəfindən 2013-cü ildə Rəhimov Orxan Azər oğluna verilmiş A-010026 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universiteti** tərəfindən 2015-ci ildə Əliyeva Aygün Nazif qızına verilmiş YB-020433 nömrəli Yenidənhazırlanma haqqında diplom itdiyi üçün etibarsız sayılır.


## ALLAH RƏHMƏT ELƏSİN!

Təhsil Nazirliyinin Maliyyə şöbəsinin müdiri Rauf Orucov və şöbənin kollektivi Azərbaycan Memarlıq və İnşaat Universitetinin inzibati təsərrüfat işləri üzrə prorektoru İsrafil Məmmədova atası

**RƏFİ MÜƏLLİMİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Bakı şəhər 267 nömrəli məktəb-liseyin pedaqoji kollektivi məktəbin ingilis dili müəllimi Elyanə Hüseynovaya

**ATASININ**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

# Vida deyil, vəd günü

## Memarlıq və İnşaat Universitetinin 43-cü buraxılışı



**Ruhiyyə DAŞSALAHLI**

Azərbaycan Memarlıq və İnşaat Universitetinin qapısından girən kimi özünü xoşbəxtlik selinə düşmüş kimi hiss edirsən. Hamının üzü gülür. Ancaq sanki emosiya azdır. Universitetin böyük həyətini cübbəlilərin şən-şaqraq səsləri bəzəməli olduğu halda, sakitliyi, hərəkətsizliyi ilə diqqət çəkən məzunlar gözə dəyir. Sanki məzun olan onlar deyil, bir təhsil pilləsini uğurla başa vurduqları üçün onları təbrik etməyə gələn, əlində gül dəstəsi ilə ora-bura vurnuxan yaxınlarıdır...

Hava istidir, bu başqa məsələ. Amma onlar da həyatın ən hərarətli bir mərhələsini arxada qoyurlar. Bunun üçün sevinməyə, sevincini dünyaya göstərməyə dəyər.

Buraxılış gecəsinin keçiriləcəyi binaya doğru gedirik. Universitetin ortasındakı parkı keçəndən sonra hərarət yüksəlməyə başlayır. Aha, deyəsən, gənclərin fəal hissəsi bu tərəfdə toplaşıb. Nəinki həyətdə, binanın hər mərtəbəsində şəkil çəkdirməkdən doymayan, həyəcanını ifadə etməkdən çəkinməyən, sevincini paylaşmaqdan qorxmayan gənclər pilləkənlərdə sədd qurublar. Sanki neçə il bu pillələri dəfələrlə qalxıb-düşməyiblər. Elə bil bu divarların arasından gündə on dəfə keçməyiblər. Universitet binasının hər tininə bələd olan keçmiş tələbələr indi hər divara, pilləkənin hər pilləsinə həsrət qalacaqmış kimi, addımbaşı şəkil çəkdirir. Kənardan baxana elə təsir bağışlayır ki, təhsil aldıqları məktəbin hər daşını həyatlarının yaddaşına köçürmək istəyirlər. Axı, onlar hər gün məzun olmurlar.

### Sizi gözləyirik!

Beləliklə, 2017-2018-ci tədris ili məzunlarının təntənəli buraxılış mərasimindəyik. Burada kim yoxdur ki? Dövlət qurumlarının, səfirliklərin nümayəndələri, millət vəkilləri, universitetin əməkdaşlıq etdiyi şirkətlərin rəhbərləri, AzMİU-nun fəxri məzunları, valideynlər akt zalının da, tədbirin də hərarətini yüksəldirlər.

Səhnədə universitetin 3-cü kurs tələbəsi, burada keçirilən bütün tədbirlərin aparıcısı Fidan Məmmədzadə və inşaat fakültəsində dekan müavini Tural Əliyev görünür. Qonaqları salamlayandan sonra Azərbaycan Memarlıq və İnşaat Universitetinin 43-cü buraxılış gecəsini açıq elan edirlər.

Əvvəlcə məzunları AzMİU-nun rektoru, professor Gülçöhrə Məmmədova təbrik etdi: “Ümid edirəm ki, həyatınızın bundan sonrakı mərhələlərində təhsil aldığınız bu universitetin adını ucaldacaq, diplomunun hörmətini qaldıracaqsınız. Universitetimizdə aldığınız mütəxəssis və həyat dərsi hər zaman köməyinizə gələcək. Hər birinizi təhsilin sonrakı pillələrində oxumaq üçün gözləyirik. Sizi auditoriyalarımızda müəllim kimi gözləyirik!”.

Rektor qeyd edib ki, hər buraxılış gecəsi onlar üçün hesabat günüdür. Məhz bu gün rəqəmlərə baxıb universitetin fəaliyyətinə qiymət verirlər. Dönüb başa vurduqları tədris ilinə nəzər salır, səhvlərinə qiymət verir, doğrularını qeyd edirlər. Nəyi düz, nəyi səhv etdiklərinin, həyata keçirilən fəaliyyətin nəticəsində hansı uğurları qazandıqlarının hesabatını aparırlar.

### Tələbələr istəsə, daha çox kredit götürüb, universiteti daha tez bitirə bilərlər

Budur, daha bir tədris ilinin nəticələri ortaya qoyulur.

AzMİU-da ötən ildən qalan məzun yoxdur. Cübbəlilərin hamısı məhz bu ilin məzunlarıdır. Ancaq bu il məzun ola bilməyənlər var. Buraxılış kursu olan 420 tələbə tələb edilən kredit sayını toplamadığı üçün təhsilini növbəti illərdə davam etdirəcək. Bunu kredit sisteminin tələbələrin qarşısına qoyduğu çətinliklərdən biri kimi dəyərləndirən rektor G.Məmmədova təhsilini tamamlaya bilməyənlərin 23 faiz təşkil etdiyini vurğulayıb.

Kredit sisteminin tələblərini yerinə yetirənlər isə daha çoxdur. Başa çatan tədris ilində universiteti bakalavriat səviyyəsində 22 ixtisas üzrə 1130 nəfər bitirib. Onlardan 4 nəfəri fərqlənmə diplomuna layiq görülüb.

Bakalavriat səviyyəsi üzrə məzunlardan 337 nəfər magistratura səviyyəsinə uğurla imtahan verərək ali təhsilin ikinci pilləsinə keçib. Onlardan 40 nəfəri xarici ölkə universitetlərinin magistr proqramlarına qəbul olunub.

Tünzalə Mikayılova magistratura səviyyəsinə uğurla imtahan verərək ali təhsilin ikinci pilləsinə keçən 337 nəfərdən biridir. 95 bal toplayaraq AzMİU-nu fərqlənmə diplomu ilə bitirir. Tikinti iqtisad fakültəsində marketinq ixtisası üzrə təhsil alan məzun magistratura səviyyəsində də təhsilini AzMİU-da davam etdirəcək: “Kredit sisteminin çətinliyi oldu. Ancaq öhdəsindən gəldik. Hesab edirəm ki, təhsilini tamamlaya bilməyənlərə görə kredit sisteminin çətinliyini səbəb göstərmək doğru deyil. Biz öhdəsindən gəldiksə, onlar da gələ bilərdi. Hətta bu sistemlə təhsilimizi daha tez tamamlaya da bilərdik. İstəsək, daha çox kredit götürüb, universiteti daha tez bitirə bilərik. Mən bunu etmək istəmədim. İstədim ki, təhsilimi elə 4 ilə tamamlayım”.

### “AzMİU-nun verdiyi təhsillə başqa ölkələrin verdiyi təhsil arasında böyük fərq görməmişəm”

Azərbaycan Memarlıq və İnşaat Universitetini magistratura səviyyəsində 38 ixtisaslaşma üzrə 227 nəfər gənc bitirir. Onların böyük hissəsi oxuduğu müddətdə yaxşı nəticələr göstərib. 16 nəfər fərqlənmə diplomuna layiq görülüb. Magistratura səviyyəsini bitirən gənclərdən 4-ü Tempus layihəsi çərçivəsində “Ekologiya mühəndisliyi” ixtisası üzrə AzMİU ilə İspaniyanın Koruna Universitetinin ikili diplom proqramı ilə təhsil alıb. Daha 4 magistr Tempus layihəsi çərçivəsində hazırlanmış “Enerji menecmenti” ixtisası üzrə təhsilini tamamlayıb.

Əsli Kərimli də magistr təhsilini AzMİU-da tamamlayanlardandır. Memarlıq fakültəsinin bina və qurğuların memarlığı ixtisası üzrə təhsil alıb. Xaricdə təhsil almaq üçün can atan azərbaycanlı gənclərdən fərqli olaraq, o, ölkə ali təhsil müəssisələrinin, xüsusən, AzMİU-nun verdiyi təhsilin keyfiyyətindən razıdır: “Məncə, hər şey tələbənin özündən asılıdır. Hansı ölkənin universitetində oxumağından asılı olmayaraq, insanın keyfiyyətli kadr kimi yetişmək istəyi varsa, bunu mütləq edəcək. Müəllimlər bizə istiqamət verir. Azərbaycanda da dünya universitetlərində verilən proqramlar tətbiq edilir. Bizim işimiz oxumaq, daim öz üzərimizdə işləməkdir. Xaricdə master-klas keçmişəm. Mən AzMİU-nun verdiyi təhsillə başqa ölkələrin verdiyi təhsil arasında böyük fərq görməmişəm. Odur ki, bir Azərbaycan təhsil müəssisəsində, xüsusən, Azərbaycan Memarlıq və İnşaat Universitetində təhsil almağımla qürur duyuram”.

### AzMİU-nun əcnəbi tələbələri

AzMİU-da təhsil alması ilə nəinki fəxr edən, hətta bunun üçün kilometrələrcə məsafə qət edənlər də var. 2017-2018-ci tədris ilində AzMİU-da tədris 3 dildə təşkil edilib. Nəticədə builki buraxılışda 95 nəfər rus və 28 nəfər ingilis dilində təhsilini başa vurub.

Ümumiyyətlə, AzMİU-nun builki məzunları arasında Türkiyə, İran, İraq, Rusiya, Türkmənistan, Sierra-Leone, Qazaxıstan, Gürcüstan və Suriyadan olan 132 nəfər var ki, onlardan 126 nəfər bakalavr, 6 nəfər isə magistrdir.

Bakalavrlardan biri Abass Kanu Afrikadan gəlib. Sierra Leone vətəndaşı olan Abass Azərbaycan Memarlıq və İnşaat Universitetində Əcnəbi tələbələrin təhsili üzrə dekanlığın tələbəsidir. İnşaat mühəndisliyi ixtisası üzrə təhsil alıb. Onu “tərbiyəli, ağıllı, fəal və yaxşı oxuyan” tələbə kimi xarakterizə edən dekan müavini Kəmalə Sərdarlı Abass haqqında “35 illik fəaliyyətimdə belə tərbiyəli, mədəni tələbə görməmişəm”, - deyir: “4 ildə cəmi bir kəsiri olub. Universitetin ictimai həyatında fəal iştirak edib. Bir sıra tədbirlərdə AzMİU-nu məhz Abass təmsil edib”.

Elə Abass da Bakıdan çox razıdır. Həm Bakıdan, həm də müəllimlərindən: “Bu semestr üçün təhsil haqqımı ödəyə bilməmişdim. Pulum olmadığı üçün ödəməm gecikirdi. Dekan müavini Kəmalə müəllim təhsil haqqımı ödədi. Həmin pulu ona sonra, ölkəmdən qayıdanda ödədim. Bu mənim üçün çox böyük bir addımdır. Mən də, elə ailəm də bu davranışı heç vaxt unutmarıq. Bu, Azərbaycanda gördüyüm gözəl münasibətin sadəcə biridir. Burada olduğum, bu universitetdə oxuduğum üçün şadam. Azərbaycanda 4 fəal tələbəlik ili yaşadım. Təhsil Nazirliyinin layihələrində - "Azərbaycanı necə tanıyırıq", “Novruz mühazirələri”ndə iştirak etdim. Ölkənizi çox sevdim. Azərbaycan bundan sonrakı həyatımın da bir parçası olacaq”.

### Memar əsgərlər: onlar 800 nəfərdən çoxdur

Memarlıq və İnşaat Universitetində təhsilini bitirdikdən sonrakı planları hələ bəlli olmayanlar az deyil. Ancaq universitetdə təhsilini bitirərək hərbi xidmətə yollanacaq yüzlərlə gənc də yetişib. Rektor Gülçöhrə Məmmədova təbrik nitqində onları da unutmayıb. Vətənin müdafiəsinə AzMİU-nun auditoriyalarından çıxıb gedəcək 800-dən artıq məzundan gözləntilər böyükdür: “Hər məzunumuzdan təhsil aldıqları universitetin adını daim uca tutmasını istəyirik. Xüsusən, əsgər məzunlarımızdan şücaət, qəhrəmanlıq gözləyirik. Hər biriniz 100 yaşlı böyük Azərbaycan ordusunun sıralarında xidmət edəcəksiniz. Bunu unutmamalı, öz qəhrəmanlığınızla Ordumuzun bundan sonrakı uğurlarında sizin də payınızın olmasına çalışmalısınız!”.

### “Universitetimizin adını zirvələrə qaldırmağa çalışacağıq”

Buraxılış gecəsində AzMİU-nun müxtəlif fakültələrində təhsil alan, həm təhsildə, həm universitetin ictimai həyatında fəal iştirak edən tələbələri diplomlarla, təltifnamələrlə mükafatlandırıldı.

Məzunların adından nəqliyyat fakültəsinin tələbəsi Ülvi Verdiyev çıxış edərək onların sevincinə qoşulanlara təşəkkür etdi: “Tələbə olduğumuz bu 4 ilin tez keçəcəyini demişdilər. Amma bu qədər tez olacağı ağlıma gəlməmişdi. Bu gün həmin 4 ildə təhsildə ciddi inkişaf yolu keçdiyimizi görürük. Ancaq inkişafımız sadəcə öz hesabımıza deyil. Müəllimlərimizin, valideynlərimizin payı daha çoxdur. Bu 4 ildə universitetimiz evimiz oldu. Bundan sonra da bu ev bizə doğma qalacaq. Xoş xəbərlərinə hər zaman sevinəcəyik. Fəaliyyətimizlə universitetimizin adını zirvələrə qaldırmağa çalışacağıq”.

Buraxılış gecəsinə son nöqtəni AzMİU-nun özfəaliyyət ansamblı qoydu. Bir-birindən maraqlı musiqi nömrələri ilə çıxış edən ansambl üzvləri gecəyə bədii rəng qatdılar.

Beləliklə, Memarlıq və İnşaat Universiteti yarandığı gündən bu yana 43-cü buraxılışını yola saldı. Ancaq o gün bir vida deyil, qarşılıqlı verilən vədlər günü oldu. Universitet məzunlarını təhsilin növbəti pillələrində, ya da müəllim olaraq gözlədiyinə dair, məzunlar isə “Xoş gününə sevinəcəyik”- deyib, öz fəaliyyətilə universitetinin adını zirvələrə qaldıracağına söz verdilər.

# “Vaşinqtonda festivalın açılışını mən etdim”

## *Rüfət Əsədli:* “Amerikalılar rəsmlərimə baxandan sonra ölkəmiz haqqında daha çox məlumat öyrənirdilər”



**Sifai SƏFƏROVA**

Hər dəfə fitri istedad sahibi olan uşaq, yeniyetmə, yaxud gənc haqqında məqalə hazırlayarkən mənəvi dünyama qeyri-adi bir rahatlıq bəxş olunur. Bəzən bir istedad sahibi barədə ürəyimə hakim kəsilən hissləri vərəqlərə köçürərkən bulud kimi dolub-boşalıram da. Çünki kövrəldiyim anlar, sevincdən gözlərimin yaşardığı zamanlar da az olmur. Ancaq bütün bunların fonunda qürur hissi düşüncələrimə işıq saçır və yazımın dili ilə dəyərli oxucularımın həmsöhbətinə çevrilirəm. Belə istedadlı şagirdlərdən biri ilə elə bu günlərdə təhsil aldığı məkanda - Məktəb-Lisey Kompleksində görüşüb söhbətləşdik.

Olduqca mehriban, gülərüz, eyni zamanda ciddi görkəmə malik olan bir yeniyetmə idi . Söhbətimiz də olduqca şirin və məzmunlu keçdi. Özünü Rüfət Əsədli kimi təqdim edən həmsöhbətimin dilindən eşitdiklərimi olduğu kimi sizə də nəql edirəm ki, ovqatınız xoş notlara köklənsin.

- 2002-ci ildə Bakı şəhərində anadan olmuşam. Nərimanov rayonundakı MLK-nın (Məktəb-Lisey Kompleksi) X sinfində təhsil alıram. Dərs əlaçısıyam. Dəqiq elmlərə, xüsusilə riyaziyyata marağım daha çoxdur. Nümunəvi şagird kimi məktəbin bütün ictimai işlərində fəal iştirak edirəm. Kiçik yaşlarımdan rəssamlığa meylim olub. 2014-cü ildə MTN-in nəzdində fəaliyyət göstərən Şəhriyar adına klubda keçirilən sərgidə dünyanın müxtəlif tarixi və mədəniyyət abidələri əks olunan rəsm əsərimlə iştirak etdim. Bu abidələr rəsmimin sağ tərəfində yerləşirdi. Sol tərəfdəsə rəsm çəkərkən istifadə olunan rənglər və palitra təsvir olunmuşdu. Ortada yazılan “Dünyanı incəsənət xilas edəcək” şüarım da var idi.

### Birincı yeri qazanaraq qalib oldum

Rəsmimdə, demək olar ki, bütün ölkələrin mədəniyyət abidələri təsvir olunmuşdu. Əsərim yüksək qiymətləndirildi. Həmin il Belarusun paytaxtı Minsk şəhərində keçirilən sərgidə də nümayiş olunan rəsmlərim həm sərgiyə baxmağa gələn Belarus vətəndaşlarının, həm də münsiflər heyətinin diqqətini daha çox cəlb etdi. Birinci yeri tutaraq qalib adını qazandım və diplomla mükafatlandırıldım. Bu əsərdə rənglərdən məharətlə istifadə etməyim sanki hamını çaşdırmışdı. Ən çox bəyəndiyim rənglər, əsasən, isti rənglərdir, qırmızı, narıncı və sair.

### Rəsmlərimə baxarkən paytaxtımızla da maraqlanırdılar

2015-ci ildə ABŞ-da İnternational Child Art Foundation-ın təşkilatçılığı ilə rəsm festivalının baş tutması gözlənilirdi. Mən də bu yarışma və festivala qatılmaq istədim və idman mövzusunda rəsm çəkərək ABŞ-a göndərdim. Nəticələr açıqlandı və qalib qismində keçiriləcək festivalda iştirak etmə hüququ qazandım. Festival Vaşinqtonda, Ağ Evin önündə yerləşən prezident parkında baş tutdu. Hətta, Fondun sədri cənab Aşfaq İşaq açılışı etmək üçün məni seçdi. İngilis dilində nitqimə başlayaraq hər kəsi salamladım və bizim işlərlə tanış olmaq üçün təşrif buyuranlara təşəkkür etdim. Həmçinin, digər qalib və iştirakçıları da uğurlarına görə təbrik etdim. Bacarıqlarımızı nümayiş etdirmək üçün bizə şans verən qurumun nümayəndələrinə təşəkkürümü ifadə etməyi də unutmadım. Daha sonra isə Azərbaycanımız haqqında qısa məlumat verdim və azərbaycanlı olduğum üçün, vətənimi burada layiqincə təmsil etdiyimə görə qürur hissi keçirdiyimi vurğuladım. Sonda isə çıxışıma diqqət kəsilənlərin hər birinə təşəkkürümü ifadə edərək nitqimi yekunlaşdırdım.

Festival boyu digər ölkələrdən gələn həmyaşıdlarımızla birlikdə rəsmlər çəkdik, fikir mübadilələri apardıq. Orada mənim rəsmlərim digər rəssamların və TV kanallarının diqqətini çəkdi. Tədbirə qatılan yerli və xarici telekanallara müsahibə verdim. Hətta kanadalı rəssam məni öz dərslərinə də dəvət etdi. Həmin festivalda diplom və medala layiq görüldüm. Sərgiyə baxmağa gələn əksər amerikalı sənətsevərlər rəsmlərimdə adi detallarla belə maraqlanır və heyran olurdular. Hətta bəzi amerikalılar rəsmlərimə baxandan sonra paytaxtımızla daha dərindən maraqlanmağa və ölkəmiz haqqında daha çox məlumat öyrənməyə çalışırdılar.

Artıq beynəlxalq müsabiqələr qalibiyəm. Fransa, Belçika, Lüksemburq və Hollandiyadan, Afrikadan - Nigeriya və Uqandadan şərgilərə qatılmaq üçün dəvətlər almışam. Amma bir sıra səbəblər üzündən iştirak edə bilməmişəm. Çalışacağam gələcəkdə beynəlxalq müsabiqələrə tez-tez qatılım.

### Futbolu çox sevirəm

Rəsm sahəsində olduğu kimi idmanda da uğurlarım var. Ümumiyyətlə, idmanın bütün növlərini çox sevirəm. Mini-futbol üzrə “Vətən” klubunun tərkibində keçirilən yarışda respublika çempionu olmuşam. 2015-ci ildə “Barselona” klubunun Bakıda təşkil etmiş olduğu müvəqqəti məktəbdə iştirakımı və ümidverici futbolçu kimi diplomla təltif olunmağımı xüsusilə qeyd etmək istərdim. Belə ki, “Barselona” klubunun müvəqqəti məktəbinə, təxminən, 100-dən çox yeniyetmənin cəlb edilməsinə baxmayaraq, onlardan yalnız çox az bir qisminə belə diplomlar verilmişdir. Ona görə də mənim üçün bu, xüsusilə, qürurvericidir.

### Arzum gələcəkdə iqtisadçı olmaqdır

Hazırda yorulmadan öz üzərimdə çalışıram. Arzum gələcəkdə ali təhsilli iqtisadçı olmaq, ölkə və dünya iqtisadiyyatının sirlərinə dərindən yiyələnməkdir. Təhsilimi Qərb dövlətlərinin birində davam etdirmək də ən böyük arzularımdandır.

*MLK-nın tarix müəllimi, Əməkdar müəllim, tarix üzrə fəlsəfə doktoru İlqar Abdullayev öz sevimli şagirdi haqqında deyir:* - Hələ aşağı siniflərdə oxuyarkən onun istedadı özünü göstərirdi. Təbiətən çox çalışqan, zəhmətkeş, həmişə özünə qarşı tələbkar olan, əldə edilənlərlə heç vaxt kifayətlənməyən, daim yeni-yeni biliklər əldə etməyə can atan bir şagirddir o. Onun tarix müəllimi kimi qeyd etməliyəm ki, əksər hallarda qədim və orta əsrlərdə baş vermiş bir çox hadisələrin təhlilində, onların müasir dövrdə baş verən müxtəlif hadisələrlə əlaqələndirilməsində Rüfətdən elə cavablar alıram ki, təəccüblənməyə bilmirəm. Rüfətin belə zəhmətkeşliyi və əməksevərliyi tezliklə öz bəhrəsini verdi. O, IX sinifdə buraxılış imtahanı verərkən respublika miqyasında ən yüksək bal toplamış şagird kimi fərqlənmə şəhadətnaməsi ilə təltif edildi. Rüfətin rəsmləri haqqında getdikcə daha geniş dairələrdə danışılırdı. Bu sahədə tanınmış mütəxəssislərin fikrinə görə, Rüfət öz rəsmlərində müasir dövrün bir çox problemləri haqqında yaşına uyğun gəlməyəcək dərəcədə dərin fikir və mülahizələr yürüdür. Əlbəttə, bu işlərdə, yuxarıda qeyd etdiyim kimi, Rüfətin humanitar elmlər, xüsusilə tarix elmi sahəsindəki fundamental bilikləri böyük rol oynayırdı. Təhsil sahəsində 33 illik təcrübəsi olan bir müəllim kimi çox arzu edərdim ki, yeniyetmələrin təki hamısı gələcəkdə belə hərtərəfli inkişaf etmiş, savadlı, hazırlıqlı, ən əsası isə vətənpərvər gənclər olsun.